

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 14 (24.396)

*6 aprel 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


## Prezident həftəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edib.

***

Prezident İlham Əliyev aprelin 2-də Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamı və Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

***

Prezident İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul edib.

***

Aprelin 4-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

***

Prezident İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.

## Naxçıvan teleradiosunun 92, "Nuhçıxan" İnformasiya Agentliyinin isə 6 yaşı tamam olub



Aprelin 1-də "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasının 92 və muxtar respublikanın ilk informasiya agentliyi olan "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətə başlamasının 6-cı ili qeyd edilib.

Bu münasibətlə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kollektivlə görüşüb.



Əvvəlcə səlahiyyətli nümayəndə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Nuhçıxan" İnformasiya Agentliyində yaradılan şəraitlə tanış olub.

Kollektivlə görüşən Fuad Nəcəfli onları təbrik edib, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn tədbirlərin, eləcə də muxtar respublikanın 100 illiyinin qeyd edilməsinin olduqca əhəmiyyətli olduğunu vurğulayıb. Səlahiyyətli nümayəndə bununla bağlı informasiyaların geniş auditoriyaya yayılmasının vacibliyini bildirib.

Fuad Nəcəfli informasiya rəqabəti mühitində Naxçıvan mediasının daim təkmilləşməsinin, gəncləşməsinin, təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib. Həmçinin səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, bu il Naxçıvan teleradiosunun yeni binasının tikintisi layihələndiriləcək və 2025-ci ildə tikinti işlərinə başlanılacaq, maddi-texniki bazasının təkmilləşdirilməsi daim diqqətdə saxlanılacaq. Televiziyanın peyk yayımını həyata keçirmək isə gələcəkdə Naxçıvanın qlobal media mühitinə çıxışını təmin edəcək.

"Qürurverici ki, muxtar respublikada Naxçıvan teleradiosu, eləcə də 100 ildən artıq tarixi özündə qoruyub saxlayan "Şərq qapısı" qəzeti kimi media orqanları fəaliyyət göstərir", – deyən Fuad Nəcəfli kollektivə fəaliyyətlərində uğurlar arzulayıb.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli Naxçıvan teleradiosunun və "Nuhçıxan" İnformasiya Agentliyinin yaranmasından, televiziyanın muxtar respublikanın ictimai-siyasi həyatında baş verən hadisələrin işıqlandırılmasındakı rolundan, 1990-1993-cü illərdə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyətinin salnaməsinə çevrilməsindən danışıb. Vurğulanıb ki, səlahiyyətli nümayəndəliyin fəaliyyəti dövründə cəmiyyətin büdcəsi artırılıb, qonorar sistemi bərpa edilib, 20-dən artıq yeni ştat vahidi yaradılıb, teleradionun efir vaxtı 17 saata çatdırılıb, Bakı bürosu fəaliyyətə başlayıb, müasir yayım və çəkiliş avadanlıqları alınıb. Ulu Öndər Heydər Əliyevin və Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə silsilə filmlər hazırlanıb.

Sahil Tahirli göstərilən diqqətə və dəstəyə görə kollektiv adından minnətdarlıq edib.

Sonra kollektivlə xatirə fotosu çəkdirilib, görüş çay süfrəsi arxasında davam edib.

**"Şərq qapısı"**




## Dünya Azərbaycanın "yaşıl platforma" strategiyasına böyük önəm verir

Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində böyük təcrübəyə malik Azərbaycanın növbəti dəfə belə bir marafona qoşulması hazırda bütün dünyanın diqqət mərkəzindədir. Təbii ki, COP29-a ev sahibliyi etmək və bu qərarın dünya ölkələri tərəfindən böyük razılıqla dəstəklənməsi sıradan bir iş deyil. Hələ 2016-cı il aprelin 22-də Birləşmiş Millətlər Təşkilatının Mənzil Qərargahında qurumun İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasına imza atan 171 ölkədən biri də məhz Azərbaycan Respublikası idi. Paris sazişinin əsas müddəalarından biri də budur ki, ölkəmiz baza ili kimi müəyyənləşdirilən 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasına dair öhdəlik götürüb. Digər tərəfdən, Azərbaycan özünün gələcək milli inkişafının əsas istiqamətini "yaşıl" ölkəyə çevrilmək prinsipi üzərində qurub. Belə ki, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi mühüm hədəf kimi müəyyənləşdirilib.

Vurğulamaq lazımdır ki, Azərbaycan indiyədək qarşıya qoyduğu istənilən məqsədə çatıb və hazırda ölkəmizin təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi üçün də kifayət qədər imkanları var. Nəzərə alaq ki, mütəxəssislərin hesablamalarına görə, Azərbaycanın quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi olmaqla, bütövlükdə, bərpa olunan enerji sahəsində 200 qiqavata yaxın bir potensialın olduğu qiymətləndirilir.

Burada diqqət edilməli məqamlardan biri də Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsidir. Təsadüfi deyil ki, Bakının bu qərarına yekdil həmrəyliyin ortaya qoyulması da Azərbaycana olan yüksək etimadın göstəricisidir. Nəzərə alaq ki, bütün bu proseslər Vətən müharibəsindən sonra Azər-




baycanın regionda yaratdığı reallıqlar fonunda baş verir. Deməli, artıq dünya birliyi də Cənubi Qafqazda ölkəmizin qətiyyəti ilə formalaşmış real vəziyyəti anlayır və etiraf edir. Elə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyinin ölkəmizə həvalə edilməsi də bu inam və etibardan irəli gəlir.

Qeyd etmək lazımdır ki, iqlim dəyişiklikləri ilə bağlı məsələlər hazırda dünya birliyi tərəfindən ən çox diqqət və müzakirə edilən mövzulardan biridir. Bu müzakirələrdə Azərbaycanın daha çox diqqət mərkəzində olması da təsadüfi deyil. Bu yaxınlarda keçirilən Münhen Təhlükəsizlik Konfransı da bunu bir daha göstərdi. Həmin konfrans çərçivəsində Azərbaycan Prezidenti cənab İlham Əliyev ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşündə iqlim maliyyələşdirilməsinin COP29-un əsas mövzusu olacağını bildirdi və qeyd etdi ki, Azərbaycan bu istiqamətdə səylərini davam etdirəcək. Dövlət başçısı Azərbaycanın milli səviyyədə bərpa olunan enerji və "yaşıl keçid" prosesi sahəsində ciddi tədbirlər həyata keçirdiyini və bu istiqamətdə qlobal miqyasda olan tədbirləri yaxından dəstəklədiyini vurğuladı. Con Kerri də, öz növbəsində, cənab İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar təbrik edərək iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu vurğuladı və hazırda "yaşıl" keçidlə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvar olduğunu bildirdi. Ölkə başçısının Almaniyada keçirdiyi bütün görüşlərdə (həm də qarşı tərəflərin müraciəti əsasında) iqlim dəyişikliyi əsas müzakirə mövzusu oldu. Belə ki, həmin gün ABŞ-ın Dövlət katibi Antoni Blinken Azərbaycanın COP rəhbərliyini öz üzərinə götürməsi baxımından çox vacib olduğunu vurğuladı və bu münasibətlə təbriklərini çatdırdı. Həmçinin Prezidentin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə icraçı vitse-prezidenti Maroş Şevçoviç, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ATƏT-in Baş katibi, Münhen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmid, Münhen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqen və başqaları ilə görüşləri zamanı da COP29-la bağlı ətraflı müzakirələr aparıldı, Bakının bu məsələyə mühüm töhfə verəcəyinə böyük inam olduğu vurğulandı.

Digər tərəfdən, Parisdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyalarında Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin COP29-da əsas vəzifələrdən biri kimi maliyyələşdirmə mexanizmləri haqqında müzakirələrdə iştirak etməsi, ABŞ Dövlət Departamentində Azərbaycanın energetika naziri Pərviz Şahbazovun COP29-la bağlı ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsinin müavini Rik Dyuk, ABŞ Enerji Departamentinin katibi Cennifer Qranholm ilə görüşündə ikitərəfli enerji əməkdaşlığının yeni mərhələdə inkişafı ilə bağlı aparılan müzakirələr mövzunun nə qədər diqqət mərkəzində olduğunu göstərir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan hazırda dünya ölkələrinin "yaşıl platforma"ya keçidində ön sıradadır və ölkəmizin potensialı, strateji, iqtisadi və siyasi nüfuzu qarşıya qoyulan məqsədlərə çatmaqda əsas rol oynayır. Bu həm də onun göstəricisidir ki, dünya Azərbaycanın "yaşıl platforma" strategiyasına böyük önəm verir.

✍ **Səbuhi HƏSƏNOV**


Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır 2

Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib 3

Ramazan günahların yandırılması, nəfsdən çəkinib bayram etmə ayıdır 6

Zəfərin Aprel Zirvəsi 9

Məmməd Arazın təhsil aldığı, üç əsrə şahidlik edən məktəb 10

Yurdumun şəfalı bitkisi – trüfel 12



# Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır

## Prezident İlham ƏLİYEV:

“ ***Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı”.*** ”

Bu gün Naxçıvan muxtariyyət tarixinin ən şanlı və əlamətdar dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamda deyilir: *“Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir”.*

Naxçıvan Muxtar Respublikasının inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərimiz ölkəmizə rəhbərlik etdiyi dövrlərdə, eləcə də SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olanda daim Naxçıvanın hərtərəfli tərəqqisi, muxtariyyət statusunun qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirindəki nitqində Azərbaycan Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***“Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı”.***

Respublikamıza ikinci dəfə rəhbərliyi illərində Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Naxçıvanda davam etdirildi.

Naxçıvan Muxtar Respublikasının 100 il ərzində keçib gəldiyi yol bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış Heydər Əliyev yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur. Naxçıvan yaşadı, inkişaf etdi, çox qısa zamanda Azərbaycanın lider regionuna çevrildi. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər, inkişaf və tərəqqi proqramı uğurla həyata keçirilmiş, muxtar respublika Ulu Öndərimizin arzuladığı, görmək istədiyi kimi qurulmuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ardıcıl diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikası yeni hədəflərə doğru irəliləməkdə, Naxçıvanın daha parlaq gələcəyi üçün mühüm layihələr həyata keçirilməkdədir. İndi bu şəhərdə, Ulu Öndərimiz Heydər Əliyevin çox sevdiyi və bir vaxtlar çətin iş rejimində çalışdığı şəhərdə çox şey tanınmaz dərəcədə yaxşılığa doğru dəyişmiş və dəyişməkdədir. Bu, ilk növbədə, Ümummilli Liderimizin uzun illərə hesablanmış ideyalarının təntənəsidir. Bu, müasir Naxçıvanın gerçək siması, real mənzərəsidir. Başımızın tacı saydığımız Naxçıvan bu möhtəşəmliyi ilə düşmənlərinə gözdağıdır.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan Heydər Əliyev epoxasının hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir. Onun hər bir səhifəsi, hər bir sətri Ümummilli Liderimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılmışdır. Azərbaycanı bəşər sivilizasiyasının beşiyi olan ölkələrdən biri, xalqımızı isə zəngin və unikal bir mədəniyyətin övladları adlandıran dahi şəxsiyyətin ən böyük xidmətlərindən biri də məhz xalqımızın şərəfli tarixi keçmişini bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini, milli adət-ənənələrimizi yaşatması, Azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın reallaşmasına nail olmasıdır.

Xalqımızın böyük oğlu özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz xalqımızın böyük oğlu Heydər Əliyevə məxsusdur. Onun Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Qətiyyətlə demək olar ki, müstəqil Azərbaycan dövləti məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Görkəmli dövlət xadimi ilk dəfə respublikaya rəhbər seçiləndən sonra müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının, sənayenin, elmin, mədəniyyətin, incəsənətin inkişafı istiqamətində qətiyyətli addımlar atılmış, ölkəmiz sürətlə inkişaf edərək sovet ittifaqında ən qabaqcıl yerlərə çıxmışdır.

Naxçıvanda milli ruhun, milli şüurun daşıyıcısı olan Azərbaycançılıq ideologiyası həmişə sədaqətlə yaşadılıb. Bu sadiqlik naxçıvanlılara həyatın bütün sahələrində uğurlar gətirib. Çətinliklərə sinə gərərək qurub-yaradıblar. Bugünkü Naxçıvan Ulu Öndərin arzuladığı Naxçıvandır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam dövlətçiliyimizin taleyüklü məsələlərinin həllini tapdığı, blokada şəraitində yaşayan Naxçıvana böyük diqqət və qayğının daha bir ifadəsidir. Sərəncamda deyilir: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur”.*

Ümummilli Liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu qədim diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilmişdir. Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə əbədi, həmişəyaşar abidə ucaltdı.

Ümummilli Liderimizin bütün ömrü mənsub olduğu xalqa təmənnasız xidmətdə keçmişdir. O nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmişdir, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan Prezident cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Ötən hər gün Azərbaycanı daha böyük tərəqqiyə qovuşdurur.

Bu il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbə qazanan Azərbaycan Prezidentinə xalqın sevgisini təkrar gördük. Seçkilər başa çatandan sonra ölkənin hər yerində xalqın küçələrə, meydanlara axışaraq öz Liderini təbrik etməsi, bayram əhvali-ruhiyyəsinə boyanan ölkə bir daha doğru seçim etdiyimizi və növbəti 7 il ərzində inkişaf, durmadan irəliyə getmək və sabitlik üçün həmrəy olduğumuzu göstərdi. Naxçıvan da öz muxtariyyətinin 100-cü ilində yenidən onun inkişafına stimul yaradan, əsrin 20 ilini birlikdə addımladığı lideri növbəti 7 ildə də öz Prezidenti görmək istədiyini bəyan etdi.

Cənab Prezidentin fevralın 14-də keçirilən andiçmə mərasimi isə müstəqil Azərbaycanın yeni yüksəliş, tərəqqi və uğurlar dövrünün başlanması bizdə gələcəyə dair daha nikbin və qətiyyətli olmağa əminlik yaradır. İllər, qərinələr ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin tarixi xidmətləri, bir insan ömründə yaratdığı xariqələr daha aydın görünəcəkdir. Zaman keçdikcə Ulu Öndərimizin böyüklüyünü daha çox hiss edəcəyik. O, Azərbaycanın yalnız bu gününü düşünmürdü, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünürdü. Mənalı ömrünü öz xalqına həsr etmiş Ulu Öndərimizin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ümummilli Liderimizin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bundan sonra da faydalanacaqdır.

Böyük şəxsiyyətlər yaşayıb-yaratdıqları, fəaliyyət göstərdikləri dövrdə siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə dəyişərək liderlik zirvəsinə yüksəlir, tarix yaradırlar. Tarix yaratmaq isə hər kəsə nəsib olmur. Ümummilli Liderimiz Heydər Əliyev müasir Azərbaycanın siyasi tarixini yaradan müdrik şəxsiyyətdir. Adı müasir tariximizə qızıl hərflərlə yazılan Ümummilli Liderimizin ömür yolu xalqa xidmət nümunəsidir. Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Bu yolu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düzgün, düşünülmüş siyasəti ölkəmizi uğurlardan uğurlara aparır. Bütün bu nailiyyətlərin təməlində isə Ümummilli Lider Heydər Əliyev yoluna sadiqlik və bu yolun uğurla davam etdirilməsi dayanır.

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru***

## N.N.Möhbalıyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nihad Nəsrəddin oğlu Möhbalıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 1 aprel 2024-cü il*

## Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib



Aprelin 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının növbəti plenar iclası keçirilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında" Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi
2. Cari məsələlər

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov məlumat verib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında irəli sürdüyü "Media haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklə bağlı qanun layihəsi Azərbaycan Respublikası Milli Məclisinin komitələrində müzakirə olunub və 29 mart 2024-cü il tarixdə Milli Məclisin növbəti plenar iclasında birinci oxunuşda qəbul edilib. Həmçinin Ali Məclisə müraciət edən bütün şəxslər üçün Ali Məclisin fəaliyyəti ilə bağlı məlumatların daha əlçatan olmasının təmin edilməsi, vətəndaş müraciət və sorğularına daha operativ şəkildə cavab verilməsi üçün Ali Məclisin rəsmi internet saytı istifadəyə verilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 35 saylı Kolanı seçki dairəsindən olan deputatı İsmayılov Cəbi Əziz oğlu 75 illik yubileyi, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi və səhiyyə sistemində səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunub.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclisin sədr müavini Anar İbrahimov iclasın gündəliyində duran birinci məsələ ilə bağlı bildirib ki, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin müvafiq maddələrinə əsasən cari il bitdikdən sonra 1 aydan gec olmayaraq müvəkkil muxtar respublikada insan hüquqlarının qorunması haqqında Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Ali Məclis qarşısında çıxış edir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsinin layihəsi Ali Məclisin müzakirəsinə çıxarılması üçün Ali Məclisin Hüquq siyasəti komitəsinə göndərilib. Layihə 18 mart 2024-cü il tarixdə komitədə müzakirə olunub, komitənin qərarı ilə Ali Məclisin müzakirəsinə tövsiyə edilib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva 2023-cü il üzrə fəaliyyətə dair məruzə edib.

Məruzə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli komitənin rəyini diqqətə çatdırıb.

Gündəlikdə duran birinci məsələ ilə bağlı deputatlardan Elman Cəfərli, İsmayıl Qəribli, Yeganə Məmmədova, Ehtimad Məmmədov, Aidə Cəlilzadə və Əmir Babayev fikir, qeyd, təklif və suallarını səsləndiriblər.

Ali Məclisin sədr müavini Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi Ali Məclislə yanaşı, Nazirlər Kabinetinə, Ali Məhkəmə və Naxçıvan Muxtar Respublikası Prokurorluğuna göndərilib. Anar İbrahimov qeyd edib ki, Ali Məclisin təcrübəsində ilk dəfə olaraq muxtar respublika ombudsmanının məruzəsi müzakirədən öncə ictimaiyyətin tanışlığı üçün parlamentin rəsmi internet saytında yerləşdirilib. Ali Məclisin sədr müavini Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsinin forma, məzmun əhatəliliyi və problemlərə yanaşma baxımından dolğun hazırlanmasına görə təşəkkürünü bildirib, bunun təsisatın və Ali Məclisin işinə müsbət təsir edəcəyini, ən əsası isə vətəndaşlar üçün faydalı olacağına ümid etdiyini vurğulayıb, məruzə ilə bağlı qeyd və sualların diqqətə çatdırıb.





Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva qaldırılan suallara aydınlıq gətirib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar səsə qoyularaq qəbul edilib.

Cari məsələlərin müzakirəsi zamanı deputatlardan Elman Cəfərli, Yeganə Məmmədova, Rizvan Məmmədov, Ehtimad Məmmədov, Sevda Quluyeva, Aidə Allahverdiyeva, Qadir İbrahimov və Nüsrət Həsənov elm, təhsil müəssisələrinə, digər yerlərə verilən və daha sonra ləğv edilən şəhid adlarının bərpası, məhəllədaxili yolların təmiri, deputatın statusu ilə bağlı bir sıra məsələlər, görkəmli şəxsiyyət Əbülfət ağa Şahtaxtinskinin məzarının bərpası, içməli su təminatı, əhalinin məşğulluğunun təmin olunması, vətəndaşların məişət şəraitinin yaxşılaşdırılması, onların tibbi sosial yardımla təminatı, sahibsiz heyvanlarla bağlı və digər mövzularda çıxış ediblər.

Anar İbrahimov qeyd olunan müraciətlərin Nazirlər Kabinetinə göndəriləcəyini deputatların diqqətinə çatdırıb.

Bununla da Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən imzalanmış 2024-cü il 18 mart tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balansında və İqtisadiyyat Nazirliyinin sərəncamında olan və Qida Təhlükəsizliyi Agentliyinin balansına verilməsi nəzərdə tutulan əsas vəsaitlərin Siyahısı təsdiq edilmişdir.

"Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin işçilərinin ümumi say tərkibinin müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin 2024-cü il 22 yanvar tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən Maliyyə Nazirliyinin işçilərinin ümumi say tərkibi artırılmışdır.

"Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Ali Məclis sədrinin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 2024-cü il 28 mart tarixdə Sərəncam imzalanmışdır. Adıçəkilən Sərəncamda qeyd edilir ki, Qida Təhlükəsizliyi Agentliyi Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Naxçıvan Qida Təhlükəsizliyi İnstitutunun nizamnaməsi və strukturu, habelə nizamnamə fondunun məbləği barədə təkliflərini iki həftə müddətində Nazirlər Kabinetinə təqdim etsinlər.

Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli Qərarı ilə "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2013-cü il 1 iyul tarixli "Naxçıvan Muxtar Respublikasının Dövlət Toxum Fonduna toxumun tədarükü, saxlanılması və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2016-cı il 18 yanvar tarixli, "Bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət ilk peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2018-ci il 15 mart tarixli, "Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin hazırlıq qruplarında tədrisin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli qərarları ləğv edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanına əsasən "Naxçıvan Muxtar Respublikasında dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin Siyahısı"nın və "Naxçıvan Muxtar Respublikasında dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2021-ci il 27 sentyabr tarixli Qərarı ləğv edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2024-cü il 29 mart tarixli Sərəncamı ilə Naxçıvan Beynəlxalq Hava Limanının balansında olan dövlət əmlakının və fəaliyyəti ilə bağlı sənədlərin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə təhvil verilməsi ilə bağlı komissiya yaradılmış və komissiyanın tərkibi təsdiq edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Ali Məclis sədrinin müvafiq Fərmanının icrası ilə əlaqədar Nazirlər Kabineti tərəfindən 2024-cü il 29 mart tarixdə Sərəncam imzalanmışdır. Adıçəkilən Sərəncamda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddi, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı barədə təkliflərini, o cümlədən müvafiq qərar layihələrini Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində Nazirlər Kabinetinə təqdim etsin.

Nazirlər Kabinetinin 2024-cü il 29 mart tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin kollegiyasının üzvlərinin sayı və tərkibinin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2019-cu il 7 dekabr tarixli Qərarı ləğv edilmişdir.

## "Analar məktəbi" istifadəyə verilib



Bu münasibətlə mərkəzdə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşları Günay Malikqızı və Tükəzban Quliyeva, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyində Səhiyyə və Qidalanma Proqramının rəhbəri Töhfə Cəmilova iştirak ediblər. Samiq Sadıxov Perinatal Mərkəzdə "Analar məktəbi" bölməsinin yaradılmasının vacibliyini vurğulayıb. Qeyd olunub ki, bu məktəb vasitəsilə analarımıza orqanizmlərində baş verən dəyişikliklər, onların dünyaya gətirdikləri uşaqlarla bağlı, onlara necə yanaşmaları, qidalanması və digər prosedurlar izah ediləcəkdir. "Analar məktəbi" ilk olaraq Naxçıvan şəhərində fəaliyyətə başlayır, yaxın dövrdə Şərur Regional Tibb Mərkəzində və Culfa Regional Tibb Mərkəzində də yaradılması nəzərdə tutulub. Bu işlərin həyata keçirilməsində BMT-nin Uşaq Fondunun dəstəyi daim bizimlədir. Onlarla birgə Perinatal Mərkəzin "Körpə Dostu Klinikası" statusunu alması üçün təlimlərə başlamışıq. Düşünürük ki, mərkəz "Körpə və Ana Dostu Xəstəxanası" olmaqla BMT-nin siyahısına düşəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Malikqızı "Analar məktəbi" layihəsinin həyata keçirilməsinin mühüm əhəmiyyət daşıdığını önə çəkib.

Perinatal Mərkəzin baş həkimi Nəzakət Gülməmmədova bildirib ki, hamilə qadınlar arasında keysəriyyə əməliyyatına normal doğuşa nisbətən üstünlük verənlər çoxluq təşkil edir. "Analar məktəbi" layihəsinin həyata keçirilməsinin əsas səbəbi hamilə qadınlara normal doğuşun üstünlükləri, yenidoğulmuşlara qulluq qaydalarını izah etməkdən ibarətdir.

Mərkəzin neanotoloqu Könül Rzayeva bildirib ki, bura müraciət edən hamilə qadınların həkim nəzarəti altında müvafiq idman hərəkətlərini yerinə yetirməsi üçün hər cür şərait yaradılıb.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin Səhiyyə və Qidalanma Proqramının rəhbəri Töhfə Cəmilova yeni açılan bölmənin ana və uşaq sağlamlığına mühüm töhfə verəcəyinə əminliyini bildirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi

*(xülasə)*

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi istiqamətində həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş müasir hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır.

2023-cü il xalqımız və dövlətimiz üçün bir çox əlamətdar hadisələrlə yadda qalmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilərək əbədiləşdirilməsi, respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, Azərbaycançılıq ideallarının, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə öz müsbət töhfəsini vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yeni idarəçilik institutunun yaradılması effektiv idarəçiliyin təmin edilməsinə, idarəetmənin təkmilləşdirilməsinə, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına xidmət etmiş, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması, xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyalarla həyata keçirilməsi hüquq institutlarına, o cümlədən Ombudsman təsisatına inamı artırmışdır. Belə ki, 2023-cü ildə Müvəkkilin icraatına daxil olan müraciətlərin sayı ötən illə müqayisədə 2.8 dəfə artmışdır.

Öz fəaliyyətini müstəqillik, aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında quran Ombudsmanın ünvanına 2023-cü il ərzində 274 müraciət daxil olmuşdur. Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş, həmçinin Aparatda vətəndaş qəbulu, Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisəsinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, səhiyyə, təhsil və əhalinin sosial müdafiəsi müəssisələrinə həyata keçirilmiş başçəkmələr zamanı təqdim edilmişdir.

Hesabat dövründə Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında sakinlərlə görüşü keçirilmiş, görüş zamanı müraciət edənlərə hüquqları izah olunmuş, icraata qəbul olunmuş 53 müraciət qanunvericiliyin tələbləri çərçivəsində araşdırılmışdır.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni 24 faizini sosial təminat, 19 faizini əmək, 14 faizini hüquq və azadlıqların məhkəmə təminatı, 12 faizini isə mülkiyyət hüququ ilə bağlı müraciətlər təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətin Ombudsmanın səlahiyyətlərinə aid olmaması, şikayətlə bağlı məhkəmə icraatının getməsi, şikayətin anonim olması, şikayətdə üçüncü şəxs qismində müraciət edənin etibarnaməsinin olmaması, ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən 1 il müddətinə verilməməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən 43 müraciətə baxılmasından imtina edilmişdir. 231 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 59-u tam, 16-sı qismən təmin edilmişdir ki, bu da Ombudsmanın fəaliyyəti dövründə ötən illər üzrə ən yüksək göstəricidir. 14 müraciət nəzarətdə saxlanılmış, 109 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 22 müraciət üzrə hüquqi məsləhət verilmiş, 1 müraciət aidiyyəti üzrə göndərilmiş, 10 müraciət üzrə isə icraat davam etmişdir.

2023-cü il ərzində Ombudsman tərəfindən baxılmış müraciətlərin 28,6 faizi tam, 7,8 faizi isə qismən təmin edilmiş, 2023-cü il ərzində baxılan müraciətlərin təmin edilmə vəziyyəti 2022-ci illə müqayisədə 19,6 faiz artmışdır.

Ombudsman və onun tapşırığına əsasən Preventiv qrupun üzvləri tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən İstintaq Təcridxanasına, Müvəqqəti Saxlama Yerinə, Qanunsuz Miqrantların Saxlanma Mərkəzinə, şəhər və rayon polis idarə, şöbə və bölmələrinin saxlama yerinə keçirilmiş başçəkmələr zamanı azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı məsələlər araşdırılmış, saxlamanın əsasları, qanuniliyi, müddət və şərtləri, saxlanılan şəxslərin hüquqlarının təmini ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunub-olunmaması məsələləri aydınlaşdırılmışdır.

Ombudsman və onun Preventiv qrupu (PQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə il ərzində 76 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı Ombudsmanın icraatına yazılı və şifahi formada 23 müraciət daxil olmuş, müraciət edənlərə operativ şəkildə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər baxılmaq üçün icraata qəbul olunmuş, qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılmış və nəticəsi barədə müraciət edənlərə yazılı məlumatlar verilmişdir. Başçəkmələrdə müraciət edənlərin 43,5 faizinin pozulmuş hüquqları bərpa edilmiş, qalanlarında hüquq pozuntusu aşkar edilməmişdir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan Müvəqqəti Saxlama Yerində, polis idarə, şöbə və bölmələrinin bəzilərində sanitariya-gigiyena qaydalarına əməl olunmadığı, istifadəyə yararsız dərman preparatlarının mövcudluğu, yumşaq inventarların istifadəyə yararsız və natəmiz olduğu, bəzi müəssisələrin müvəqqəti saxlama yerlərində şəraitin uzunmüddətli saxlanılma (24 saatdan artıq) üçün əlverişli olmadığı, Ədliyyə Nazirliyi Penitensiar Xidmətin bəzi müəssisələrində saxlama şəraitinin digər aspektləri – işıqlandırma, havalandırma, sanitariya şəraiti, masa və oturacaqlar, habelə fərdi çarpayı və yataq ləvazimatları ilə təchizat məsələləri ilə bağlı çatışmazlıqların aşkarlandığı, Təhsil Nazirliyinin tabeliyində olan Ordubad şəhər tam orta internat məktəbində tərbiyə olunan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş şagirdlər istisna olmaqla müəssisədə gecələyən digər uşaqlara geyim, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventarın verilmədiyi, uşaqlarla aparılmış söhbətlər zamanı onların məktəbin gecə dayəsinin pis rəftar halından narazı olduğu, həmçinin məktəbin istilik sistemində nasazlıqların olduğu, Səhiyyə Nazirliyinin tabeliyində olan Psixi Xəstəliklər Dispanserinin inzibati binasında havalandırmanın bəzi otaqlarda normal olmadığı, ventilyasiyanın, o cümlədən sanitar qovşaqlardan birinin işləmədiyi, pasiyentlərin qida təmini məsələlərində çatışmazlıqların olduğu, onların yumşaq inventarlarla təmin edilmədiyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Ahıllar Evinin yeməkxanasının soyuq olduğu və gigiyena vasitələri ilə təmin olunmadığı, o cümlədən ahıl sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan şəraitin qənaətbəxş olmadığı müşahidə edilmişdir.

Ombudsman tərəfindən aidiyyəti dövlət orqanlarına qeyd olunan halların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi tövsiyə olunmuş, verilmiş təklif və tövsiyələrdən sonra pozuntuların əksəriyyəti aradan qaldırılmışdır.

Qeyd etmək lazımdır ki, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun icrasına nəzarəti həyata keçirən Ombudsman bu hüququn təmini, müdafiəsi və təbliği sahəsində geniş fəaliyyət həyata keçirməklə informasiya əldə etmək hüququnun daha səmərəli təmininə, informasiya cəmiyyətinin qurulmasına və açıq hökumətin təşviqinə istiqamətlənmiş islahatlara dəstək verir.

İstər informasiya əldə etmək hüququnun təmin edilməsinə dair müraciətlər, istərsə də Ombudsmanın ünvanına daxil olmuş informasiya sorğuları "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada baxılaraq cavablandırılmışdır.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına 1 müraciət daxil olmuş, şikayət üzrə araşdırma aparılmış, pozuntu halının aradan qaldırılması və vətəndaşın informasiya sorğularının cavablandırılması istiqamətində zəruri tədbirlər həyata keçirilərək vətəndaşın hüququ təmin edilmişdir.

Muxtar respublikada bir çox dövlət qurumlarının rəsmi internet səhifələrindəki onlayn müraciət bölmələrinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yenilənməsinə ehtiyac vardır. Bu baxımdan informasiya sorğularının onlayn qaydada verilməsinin təmin edilməsi məqsədilə dövlət qurumlarının rəsmi internet səhifələrində mövcud olan onlayn müraciət bölmələrində "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ayrıca "informasiya sorğusu" yarımbölməsinin əlavə edilməsi zəruridir.

İnformasiya əldə etmək hüququnun təbliği, bu hüquqla bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Kəngərli və Şahbuz Rayon İcra hakimiyyətlərində maarifləndirmə tədbirləri həyata keçirilmiş, informasiya sahibi olan dövlət orqanlarının, bələdiyyələrin və vəzifəli şəxslərin həmin Qanunun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun pozulması ilə əlaqədar daxil olan müraciətlərə baxılması və cavablandırılması barədə iştirakçılara məlumat verilmişdir. Ümumilikdə, informasiya sahəsində hüquq və azadlıqların təmin edilməsi məqsədilə keçirilmiş tədbirlərdə 287 nəfər iştirak etmişdir.

Qanunvericiliyin tələblərini nəzərə alaraq Ombudsman informasiya sahibləri tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, xüsusilə verilən informasiya sorğularına qanunla müəyyən olunmuş qaydada və müddətdə cavab verilməsinin zəruriliyini vurğulayaraq müvafiq dövlət orqanlarına tövsiyə məktubları ünvanlamışdır.

Ombudsman əhalinin peşəkar hüquqi yardımla təmin edilməsi və bununla da hüquq və azadlıqların daha etibarlı müdafiəsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də maarifləndirmə işinin təşkili istiqamətində Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası ilə əməkdaşlığı davam etdirmişdir.

Əmək hüququ ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərdə, əsas etibarilə münasib işlə təmin olunma, qanunvericiliyin tələbləri pozulmaqla işdən azad edilmə, müəssisənin ləğvi və ya ştatların ixtisarı ilə işdən azad olunmuş şəxslərin başqa işlə təmin olunması ilə bağlı hallar öz əksini tapmışdır. Müraciətlərin araşdırılması zamanı pozulmuş əmək hüquqlarının bərpası məqsədilə Ombudsman tərəfindən səlahiyyətləri daxilində tədbirlər görülmüşdür.

Sosial təminat hüququ ilə bağlı daxil olan müraciətlərin bir qismi pensiya hüququnun təmin edilməsi, ünvanlı dövlət sosial yardımının verilməsi və əlillik vəziyyətinin qiymətləndirilməsi üçün göndərişin müəyyən edilmiş qaydada rəsmiləşdirilməsi ilə əlaqədar olmuşdur. Pensiyaların və ya müavinətlərin təyin edilməsi və ya yenidən hesablanması, ünvanlı dövlət sosial yardımının verilməsi, o cümlədən əlilliyin qiymətləndirilməsi ilə bağlı olan bu müraciətlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ölkəmizdə əhalinin sağlamlığının qorunması hüququnun səmərəli təmini məqsədilə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada da tibb müəssisələrinin kadr və maddi-texniki bazası əsaslı surətdə müasirləşdirilərək möhkəmləndirilməkdədir. Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, hüquqların pozulması halları müəyyən edildiyi təqdirdə onların bərpası üzrə zəruri tədbirlər görülmüşdür.

Sağlamlıq hüququnun müdafiəsi ilə bağlı müraciət edən şəxslər əsas etibarilə aztəminatlı ailələrdən olan şəxslərdir. Bu müraciətlərdə, əsasən, müayinə və müalicənin təşkili, imtiyazlı qrupdan olan şəxslərin pulsuz dərman preparatarları ilə təmin edilməsi ilə bağlı problemlər öz əksini tapmışdır. Ombudsmanın aidiyyəti üzrə müraciətlərindən sonra bir sıra şəxslərin müvafiq tibbi yardımla təmin edilməsi, habelə müayinə və müalicənin təşkili məqsədilə tibb müəssisələrinə göndərilməsi təmin edilmişdir.

Təhsil hüququ insanın əsas sosial-mədəni hüquqlarından biridir. Təhsil yalnız bir hüquq kimi deyil, eyni zamanda digər insan hüquqlarının tam və effektiv həyata keçirilməsi üçün də vasitə kimi görülür, hər bir insanın inkişafına və ləyaqətinin dərk olunmasına, insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə, eyni zamanda hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmasına imkan yaradır.

Təhsil hüququnun təmin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində pozuntu halları aşkar edilmiş, problemlərin təhlili aparılmış və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyələr verilmişdir.

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin bir qismi vətəndaşların mənzil, mülkiyyət hüquqlarının pozulması ilə bağlı olmuşdur.

Mülkiyyət hüququnun pozulması ilə əlaqədar 2023-cü il ərzində Müvəkkilə daxil olmuş şikayətlərdə hüquq pozuntusu baş verdiyi vaxtdan 1 ildən artıq müddət keçdiyindən, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa uyğun olaraq həmin müraciətlərə baxılmaqdan imtina edilmiş və vətəndaşlara vurulmuş zərərin ödənilməsi ilə bağlı aidiyyəti üzrə müvafiq məhkəməyə müraciət etmək hüququ izah olunmuşdur.

Muxtar respublikada müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsinin və rifah halının yaxşılaşdırılması Ombudsman tərəfindən diqqətdə saxlanılmış, bu kateqoriyadan olan şəxslərə xüsusi diqqət və hərtərəfli dövlət qayğısı göstərilmiş, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunmuş, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilmişdir. Həmçinin Ombudsman aparatının əməkdaşları tərəfindən şəhid ailələri ziyarət olunmuş, ailələrin qayğıları, hüquq və azadlıqların təmini istiqamətində digər məsələləri dinlənilmişdir.

Tutulmuş, həbs edilmiş və ya məhkum olunmuş şəxslərin və onların ailə üzvlərinin müraciətlərinin araşdırılması zamanı həmin şəxslərin işgəncəyə və qeyri-insani rəftara məruz qalması məsələləri, sağlamlığının qorunması, müraciət etmək, ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunması, hüquqi yardım almaq və qanunla müəyyən edilmiş digər hüquqlarının təmin olunması diqqətdə saxlanılmışdır.

Qeyd etmək lazımdır ki, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 25 nəfər məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 1 nəfər məhkumun cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmişdir. Əfv məsələləri ilə bağlı icraata daxil olmuş müraciətlər Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) göndərilmiş və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 may tarixli Sərəncamı ilə 1 nəfər məhkum barəsində əfvetmə tətbiq olunmuşdur. Ümumilikdə, 2023-cü il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 27 məhkum barəsində humanist tədbirlər tətbiq edilmişdir.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqətdə saxlanılmışdır. Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilmiş, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilmiş, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılmışdır. 2023-cü il ərzində, ümumilikdə, 109 cəza çəkməkdən azad edilmiş şəxs barəsində sosial adaptasiya tədbirləri tətbiq edilmişdir ki, bunlardan 106 şəxsə birdəfəlik pul müavinəti, 3 şəxs isə özünüməşğulluq proqramına cəlb olunmuşdur.

Hərbi qulluqçular və onların ailə üzvlərindən Ombudsmana daxil olmuş müraciətlərdə, əsasən, məhrum olduqları hərbi rütbənin bərpa edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi xidmətdə olduğuna dair arayış və digər zəruri sənədlərin verilməsi, sığorta ödənişinin ödənilməsi, habelə hərbi qulluqçuların, ehtiyatda və istefada olan hərbi qulluqçuların və onların ailə üzvlərinin bəzi sosial problemləri, o cümlədən mənzil təminatı ilə bağlı məsələlər öz əksini tapmışdır.

*Ardı 5-ci səhifədə*

Gender bərabərliyinin təbliği və təmin olunması, habelə qadın hüquqlarının müdafiəsi məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınması sahəsində səmərəli fəaliyyət təşkil olunmuşdur.

Qadınlar tərəfindən Ombudsmanın ünvanına daxil olan müraciətlərin əksəriyyəti əmək, məşğulluq və sosial təminat məsələləri ilə bağlı olmuş, qadınların öz məşğulluğunu təmin etmələri üçün onlara münasib işlər təklif olunaraq müvafiq köməklik göstərilmişdir.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə, əsasən, alimentin ödənilməsi və ünsiyyət hüququnun təmini ilə bağlı məhkəmə qərarlarının icrası, sağlamlıq və təhsil hüququ, müəssisəyə yerləşdirmə və bu kimi digər məsələlər öz əksini tapmışdır. Uşaq hüquqlarının etibarlı və səmərəli müdafiəsi, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının effektiv təmini məqsədilə araşdırmalar aparılmış, müvafiq dövlət qurumlarına müraciətlər edilmiş, problemlərin həlli istiqamətində zəruri addımlar atılmış, bir sıra hallarda müsbət nəticələr əldə edilmişdir.

Ahıl vətəndaşların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyasının beynəlxalq standartlar səviyyəsində qurulması Ombudsman tərəfindən davamlı araşdırılmış, onlara göstərilən tibbi-sosial xidmətlərin, asudə vaxtlarının təşkili və digər hüquqların təmin olunması vəziyyəti nəzarətdə saxlanılmış, Ahıllar Evinə başçəkmələr həyata keçirilmiş, orada olan şəxslərlə fərdi və konfidensial söhbət aparılmış, müəssisə rəhbərinə və əməkdaşlarına hüquqi məsləhətlər və tövsiyələr verilmişdir.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin aparılmasında köməyin göstərilməsi, tibb müəssisələrinə və reabilitasiya mərkəzlərinə göndərişlərin verilməsi, dərman preparatları və köməkçi vasitələrlə təminat məsələləri öz əksini tapmışdır. Bu qəbildən olan müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş və problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Miqrantların hüquqlarının təmin olunması məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınması məqsədilə mütəmadi olaraq başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərin beynəlxalq və milli qanunvericiliyə uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyəti araşdırılmışdır.

Ombudsmanın təşkilatçılığı və dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən media nümayəndələrinin iştirakı ilə insan hüquqlarının müxtəlif istiqamətlərinə dair hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, eyni zamanda təsisat əməkdaşları digər qurumlar tərəfindən keçirilmiş tədbirlərdə məruzəçi qismində iştirak etmişlər.

Hesabat dövründə Ombudsman tərəfindən, xüsusilə həssas qrupdan olan şəhid ailələri, müharibə veteranları, uşaqlar, əlillər, qadınlar, ahıllar və miqrantlarla görüşlər keçirilmiş, onlara digər hüquqlarla yanaşı, Ombudsmana müraciət etmək hüquqları izah edilmişdir.

Bundan başqa, 2023-cü ildə Ombudsman hərbi qulluqçularla görüşmüş, hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi və rəftar məsələlərinin araşdırılması məqsədilə əsgər heyəti ümumi və fərdi şəkildə qəbul edilərək konfidensial qaydada dinlənilmiş, hüquqi maarifləndirici söhbət aparılmışdır.

2023-cü ildə Ombudsman və Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri arasında görüş keçirilmiş, qarşılıqlı əməkdaşlığın gələcək perspektivləri müzakirə edilmişdir.

2023-cü ildə Ombudsman aparatında gənclərin hüquqi maarifləndirilməsi, hüquqi düşüncə və hüquq mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin könüllü tələbələri ilə Ombudsmanın görüşü keçirilmişdir.

Ombudsman tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə, ümumilikdə, 104 tədbir həyata keçirilmiş və bu tədbirlərdə 6214 nəfər iştirak etmişdir.

Ombudsman təsisatı tərəfindən "Sağlamlıq imkanları məhdud uşaqların hüquqi müdafiəsi" adlı məlumat kitabçası və "Mənim hüquqlarım" adlı vəsait hazırlanaraq kitabxanalara paylanılmışdır.

Ombudsman insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları təklif edir:

- Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində saxlama şəraitinin yaxşılaşdırılmasını, təmir-bərpa istiqamətində işlərin davam etdirilməsini, müvafiq müəssisələrdə görüş otaqlarının yaradılmasını;
- Polis tərəfindən tutulmuş şəxslərlə bağlı qanunvericiliyin tələblərinə uyğun saxlama müddətlərinə riayət edilməsinə nəzarətin gücləndirilməsini, qeydiyyat kitablarının tərtibi sahəsində nöqsanların aradan qaldırılmasını, hər bir tutulmuş şəxsin qeydə alınması zamanı həbsdə saxlamanın bütün aspektlərini və görülən bütün tədbirləri əks etdirən əhatəli qeydiyyatın aparılmasını;
- Cəzaçəkmə müəssisələrində cəzanın insan ləyaqətinə hörmət edən şəraitdə çəkilməsi üçün saxlama şəraitinin, sanitariya-gigiyena şəraitinin yaxşılaşdırılmasını;
- Məhkumların istənilən vaxt həkimə müraciət etmək imkanının təmin edilməsi, o cümlədən keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi üçün cəzaçəkmə müəssisələrində həkim saylarının artırılmasını;
- Məhkumların əməyə cəlb olunması və məşğulluğunun artırılmasını, onların islahı prosesinə diqqətin artırılmasını;
- Dövlət müəssisələrində yaşayan uşaqların zəruri vasitələrlə təmin edilməsini, uşaqların və ahılların asudə vaxtlarının səmərəli təşkili istiqamətində tədbirlərin genişləndirilməsini;
- Məişət zorakılığından zərərçəkmiş şəxslərə mühafizə orderinin verilməsinin təmin olunmasını;
- Çətin həyat şəraitində olan, o cümlədən məişət zorakılığından zərərçəkmiş şəxslərin, xüsusən qadın və uşaqların təhlükəsizliyinin və müdafiəsinin xüsusi təlim keçmiş mütəxəssislərin köməyi ilə təmin edilməsi məqsədilə yardım mərkəzlərinin, sığınacaq evlərinin, psixoloji dəstək mərkəzlərinin yaradılmasını;
- Ahıl şəxslərin sosial-hüquqi müdafiəsinin daha da gücləndirilməsi istiqamətində ardıcıl və davamlı tədbirlərin görülməsini;
- Əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsi zamanı süründürməçiliyin qarşısının alınması və obyektivliyin təmin edilməsi məqsədilə tibbi-sosial ekspert komissiyaları ilə həkim məsləhət komissiyaları arasında funksional əlaqələndirmənin təmin edilməsini;
- İmtiyazlı qruplardan olan və dövlət hesabına dərman preparatları ilə təmin edilən şəxslərin sağlamlığının qorunması hüququnun daha səmərəli təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini;
- İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələrdə informasiya məsələləri üzrə xidmətlərin göstərilməsi məqsədilə vəzifəli şəxslərin müəyyən edilməsini, o cümlədən rəsmi internet səhifələrində "informasiya sorğusu" bölməsinin yaradılmasını;
- İnsan hüquqlarının müdafiəsinin daha səmərəli və operativ təmin edilməsi məqsədilə Ombudsman təsisatında "Çağrı mərkəzi" xidmətinin təşkil edilməsini.

Ombudsmana etimad göstərərək müraciət edən şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının təmin və müdafiəsi istiqamətində əməkdaşlıq edən dövlət orqanlarına və vətəndaş cəmiyyəti institutlarına, eyni zamanda ilk dəfə olaraq muxtar respublika Ombudsmanın məruzəsini müzakirədən öncə ictimaiyyətə açdığına görə Ali Məclisə təşəkkür edirəm.

**Günay RZAYEVA**
***Naxçıvan Muxtar Respublikasının***
***İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***

## Xalq artisti Abdulla Babayevin xatirə gecəsi olub



Aprelin 1-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Xalq artisti, "Şöhrət" ordenli Abdulla Babayevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilib. Gecənin aparıcısı Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Etiqad Seyidov olub.

Tədbiri giriş nitqi ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri vəzifələrinin icraçısı, nazir müavini Həsən Seyidov Abdulla Babayevin sənət yolundan söz açıb, Xalq artistinin ömrünün 60 ildən çoxunu Azərbaycan ifaçılıq sənətinə həsr etdiyini, muğamlarımızın, xalq və bəstəkar mahnılarının nadir ifaçısı olduğunu vurğulayıb.



Xatirə gecəsində Xalq artistinin oğlu, Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, Əməkdar incəsənət xadimi, professor Səidə Məmmədova, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov, Əməkdar incəsənət xadimi Əkrəm Məmmədov, Tumbul kənd ziyalısı Nağı Nağıyev Abdulla Babayevlə bağlı xatirələrini bölüşüb, onun sənət yolu, ifaçılıq məharəti, yüksək insani keyfiyyətləri barəsində danışıblar.

Tədbirdə Xalq artistinin Ümummilli Lider Heydər Əliyevlə görüşündən və həyatının müxtəlif məqamlarından bəhs edən videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının solistləri – Xalq artisti Əzizağa Məmmədov, Azərbaycan Respublikasının Əməkdar artisti Vilayət İsmayılov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri – Hünər Əliyev, Zülfiqar Mahmudov, solistlər – Nərmin Hüseynova, Zamin Vəliyev, İsrafil Qibləliyev və Abdulla Babayevin adını daşıyan nəvəsi sənətkarın repertuarında yer alan "Təki sən səslə məni", "Şəhla gözlüm", "Ordubad", "Kor ərəbin mahnısı", "Naxçıvan", "Kimlər gəldi, kimlər getdi", "Şur" təsnifini ifa ediblər.

Azərbaycan Respublikasının Əməkdar artisti, tanınmış tarzən Zeynalabdin Babayevin ifa etdiyi "Qərənfil" əsəri maraqla qarşılanıb.

Xatirə gecəsi Abdulla Babayevin dillər əzbəri olan "O, Naxçıvandır" mahnısının ifası ilə sona çatıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Aprel döyüşləri – Böyük Zəfərin başlanğıcı" adlı tədbir keçirilib



Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Aprel döyüşlərinin 8-ci ildönümünə həsr olunmuş "Aprel döyüşləri – Böyük Zəfərin başlanğıcı" adlı tədbir keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Malikqızı vurğulayıb ki, ölkə başçısı Azərbaycan Ordusunun hərbçiləri ilə görüşündə Aprel döyüşlərinin Ermənistanın uzun illər qurduğu ideoloji əsasları dağıtdığını deyib. Bu döyüşlər göstərib ki, Azərbaycan Ordusu güclüdür, Azərbaycan xalqı öz torpaqlarını azad etməyə qadirdir. İgid Vətən oğullarımızın canları, qanları bahasına illərlə yaradılan mifi darmadağın edib və Zəfərə gedən yolun əsasını qoyub.

Qeyd edilib ki, mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyev Aprel döyüşlərinin Naxçıvandan olan şəhidləridir. Rasim Məmmədovun atası da onun kimi torpaqlarımız uğrunda döyüşüb, əlil olub, oğlunun ölümündən sonra dünyasını dəyişib. Qabil Orucəliyevin şəhadətindən sonra onun oğlu Qabil dünyaya gəlib. Bu gün Naxçıvanda bir Qabil Orucəliyev də vardır və şəhidimizin adı ilə yaşayır. Şəhidlər ölməzdirlər, onların ruhu daim qəlbimizdə yaşayacaq.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, qəhrəman Vətən oğullarının şücaəti hesabına qələbə ilə nəticələnən Aprel döyüşləri 44 günlük Vətən müharibəsində əldə edilən böyük Zəfərə yol açıb. Bu döyüşlərdən cəmi dörd il sonra II Qarabağ müharibəsi ilə uzun illər işğal altında qalan torpaqlarımız azad olunub. Bu gün bütün şəhidlərimizin ruhu şaddır.

Şəhid mayor Rasim Məmmədov haqqında videoçarxın nümayişindən sonra çıxış edən şəhidin qardaşı Şahin Məmmədov bildirib ki, atası Əbdül Məmmədov 1990-cı illərdə könüllü olaraq Sədərəkdə strateji yüksəklik olan Miltəpədə gedən döyüşlərdə iştirak edib və I Qarabağ müharibəsi əlili olub. Qardaşının atasının yolunu davam etdirdiyini və Lələtəpə yüksəkliyini azad edərkən şəhidlik zirvəsinə ucaldığını deyən Şahin Məmmədov bütün şəhidlərə rəhmət diləyib, tədbirin təşkilinə görə minnətdarlıq edib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mais Gülməmmədov bildirib ki, şəhidlərimizin yolu örnəkdir. Belə tədbirlərin təhsil ocaqlarında təşkili yeniyetmə və gənclərin tariximiz, şanlı Zəfərimiz haqqında daha dolğun məlumat almasında, onların xatirələrinin ehtiramla yad edilməsində mühüm əhəmiyyət kəsb edir.

Sonra Aprel döyüşlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Naxçıvan Müəllimlər İnstitutunun tələbələri şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirib, səhnəcik nümayiş etdiriblər.

Sonda şəhidlərimizə həsr edilmiş əl işlərindən ibarət sərgiyə baxış olub.

**Güntac ŞAHMƏMMƏDLİ**



# Ramazan günahların yandırılması, nəfsdən çəkinib bayram etmə ayıdır

Gecənin qaranlığında sevgi və istəklə oyanıb Ramazan ayında işıqlarını yandıran evlərin sakinləri Allahın ən xoşbəxt bəndələridir. Otuz ildən sonra bu evlərin sayı cəmi 44 gündə artdı ölkəmizdə. İndi bütövləşən Azərbaycan torpaqlarında çırağı yanan evlərin sayı artıb. Çünki neçə-neçə ataların duası olub imsaka Şuşada dursun, Xankəndidə, Xocalıda dursun. Neçə-neçə anaların duası olub iftarı Füzulidə, Zəngilanda, Laçında açsın. Neçə-neçə oğulların istəyi olub o torpaqları oruclu ziyarət etsin. Ürəklər təmiz, niyyətlər saf olarsa, səmaya ucalan dualar pıçıltı olub Allaha çatar. Əmrlər, qadağalar, olar-olmazların hamısı isə Allahın insana sevgisinin təzahürüdür. Ramazan ayı il ərzində günahdan qorunmaq üçün ən gözəl fürsətdir. Sanki Allah bizi bu bir ayda təcrübə etdirərək dözümlülük yaradır. Allah dostları yorulmur bu günlərdə Allah qapısına getməkdən. Üzrxahlıq üçün də, keçmişi düzəltmək üçün də ən gözəl fürsətdir bu ay.

Müqəddəs Ramazan ayı müsəlmanlara 622-ci ildə fərz edildi. Bu ay insanlara Allahı sevmək prinsiplərini öyrədir, onları öz iradələrini ortaya qoymağa, dözümlülüyünü yoxlamağa, təmiz vicdanlı olmağa yönəldir. Oruc ərəbcədən tərcümədə “çəkinmək” anlamına gəlir. Ramazan isə ərəbcədən tərcümədə “yandırmaq” anlamı verir. Yəni bu müddət ərzində insan təkcə qida ilə özünü sınamır, eyni zamanda baxışları ilə harama baxmamaqla, nitqi ilə qeybət etməməklə pislikləri yandırır. Ramazan ayı insanın müsbət keyfiyyətlərini artıran bir aydır. Bu baxımdan müqəddəs sayılır. Digər tərəfdən, ən gözəl dini bayram kimi xüsusi önəm daşıyır. Klassik ədəbiyyatımızda da ramazaniyyələr yazılaraq bu ayda insanlara oxunub. Tarixdə Ramazanla bağlı belə məqamlar çox olub. Ona görə Ramazan xalqın taleyinə yazılan müqəddəs bayram kimi qeyd olunur. Bu bayramda hər bir kəs özünü sınaqdan keçirir. Yəni mən Allahın sınaqlarına hazıram və layiqəm. Yəni Allah məni sınadı, dedi ki, oruc tut, mən də tutdum. Orucu açanda da “Allahım sənə güvəndim, sənə görə oruc tutdum”, – deyir.

Ramazan müsəlmanlar üçün orucun vacib olduğu doqquzuncu qəməri ayıdır. Bu ay Allahın qonaqpərvərliyi, rəhmət, bağışlanma və bərəkət ayı, Quranın baharı adlandırılmışdır. Hədislərə görə, bu ayda cənnətin qapıları açılır, cəhənnəmin qapıları bağlanır. Quranın nazil olduğu Qədr gecəsi bu aydadır. Tövrat və İncil kimi digər səmavi kitablar da bu ayda nazil olunub. Ramazan ayı Quranda adı keçən yeganə aydır. Bu ayın müsəlmanlar üçün xüsusi yeri və hörməti vardır. Müsəlmanlar bu ayda ibadətə xüsusi diqqət yetirirlər. Bu ayın ən mühüm əməllərindən biri də Quran tilavəti, Qədr gecələrini diriltmək, dua etmək, istiğfar etmək, iftar etmək, yoxsullara kömək etməkdir. Bu ayın 21-də birinci imam Həzrət Əli şəhadətə qovuşub, İmam Həsən isə bu ayın 15-də dünyaya göz açıb. Ramazan ayında ibadət və oruc tutmaq müsəlman kimliyinin bir hissəsidir. İslam cəmiyyətlərində Ramazan ayı üçün məclislər, məscid və dini yerlərin təmizliyi, barışıq mərasimləri, daş atma mərasimləri, şirniyyat və xörək bişirmək kimi müxtəlif adət və ənənələr formalaşıb. Bu ayda məhrəm insanlar bir-birinə libas kimidir. Bəndələr bu ayda Allahın buyurduğu kimi yeyib-içir ta ki ağ sap kimi sübhün nuru qara sap kimi zülmətdən ayrılana qədər. Sonra Günəş batana və axşam namazının vaxtı daxil olana qədər oruc tutulur.

Oruc bir qalxandır. Oruc tutarkən pis söz danışmaq olmaz. Orucu tutanın iki sevinc anı vardır: biri iftar etdiyi zaman, digəri isə orucunun savabı ilə Rəbbinə qovuşduğu vaxtdır. Orucluq hələ İslamdan da əvvəl mövcud idi. Bu haqda Quranda deyilir: “Sizlərə oruc tutmaq göstərişi verildiyi kimi, sizdən əvvəlkilərə də həmin göstəriş verilmişdir”. Orucluq Fitr bayramı ilə başa çatır. Həmin gün bütün imkanlı müsəlmanlar kasıblara yardım etməlidirlər. Fitrə verərkən bütün ailə üzvləri nəzərə alınır. 1993-cü ildən Ramazan bayramı dövlət səviyyəsində qeyd olunur.

Hər bir dində oruc tutmaq, orqanizmi həm fiziki, həm də mənəvi baxımdan təmizləmək ənənəsi var. İslamda isə il ərzində bir dəfə – Ramazan ayında oruc tutmaq buyurulub. Ramazan 11 ayın sultanı sayılır. İslami ehkamlara görə, Ramazan ayında günahlar bağışlanır. Şəriət kitablarının yazdığına əsasən Ramazanın ən böyük fəziləti ondan ibarətdir ki, Allah bu müqəddəs ayda edilən duaları qəbul edir. Bu ayda oruc tutan müsəlmanlar günahdan təmizləndiklərinə əmin olduğu üçün yayın istisində də, qışın soyuğunda da ibadətlərini davam etdirirlər. İslam inancına əsasən Allah buyurur: “Oruc mənim üçündür və mən də onun mükafatını öz dərgahımda xüsusi olaraq verəcəyəm”.

Yayda tutulan orucun savabı ona görə böyük hesab olunur ki, Allah isti havalarda öz bəndəsinin səbrini bir daha sınağa çəkir, onu dözümlü olmağa çağırır. “Qurani-Kərim”də deyilir: “Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi”. Oruc müəyyən və sayılı günlərdə tutulur. Orucun vacib olduğu Ramazan ayı insanlara hidayət olan, onlara doğru yolu göstərən və haqqı batildən ayıran ən açıq dəlilləri ehtiva edən “Qurani-Kərim”in nazil edildiyi aydır. Bütün bunlar Allahın izzətini tanımaq və sizə doğru yolu göstərdiyi üçün Ona şükür etmək üçündür.

Ramazanın son gününə qədər insanlar oruc tutub, ibadət edir, günahlardan arınmaq üçün nəfslərindən qaçıb Allaha sığınırlar. Quranın yer üzünə nail olduğu bu ayda hər kəsin üzündə bir bəxtəvərlik, sevinc yaranır. Lakin ürəyi Allah eşqi ilə döyünən ariflər üçünsə bu ayın son günləri o sevinc yox olur. Səbəbi isə budur ki, aşiqlər öz məşuquna yetişmədi. Ona görə də hicran yenə davam edir. Bu baxımdan nə qədər ki insanın bədənində nəfsi var, nə qədər ki bu nəfsi cilovlaya bilmir, o zaman bu istəkdən keçərək bayram etmək olar. Məhz Ramazan ayının bir digər mənası da nəfsdən qurtulub bayram etmək anlamındadır. İnsan yaşadığı müddətdə tam nəfsdən qurtula bilməz. Gərək cismi təhvil versin ki, ruhu qurtulsun. Bu mənada, Ramazan sanki nəfsdən az müddətə epizodik qurtulmadır.

Göydən yerə rəhmət tökülən bu ay artıq bizimlə vidalaşır, bizi öz hicranına bürüyərək gözümüzü yolda qoyur. Nə qədər çətin olsa da, bu müqəddəs bayramda rəhmət ayı ilə sağollaşmağa üz tuturuq. Bu ayın haqqını yerinə yetirə bilməsək də, bu ay üçün çox darıxacağıq. Salamat get, ey Allah dostlarının bayramı, salamat get, ey ayların ən xeyirlisi, salamat get, ey Ramazan ayının gündəlik duaları, salamat get, ey iftar vaxtları, salamat get, ey o başdan oyanıb ibadət etdiyimiz saatlar, salamat get, ey ən gözəl vaxtlarımız!

**Fariz ƏHMƏDOV**

## Şəhidin anım günü qeyd olunub

Babək rayonunun Cəhri qəsəbə uşaq musiqi məktəbində şanlı Aprel zəfərinin qəhrəman şəhidi mayor Rasim Məmmədovun anım günü keçirilib. Öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova bildirib ki, Naxçıvan torpağının igid oğlu Rasim Məmmədov Lələtəpə yüksəkliyinin azad olunması əməliyyatında igidlik göstərərək şəhadət şərbəti içib. Xidməti dövründə mayor Rasim Məmmədov bir sıra Fəxri fərman və medallarla, ölümündən sonra isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən “Vətən uğrunda” medalı ilə təltif edilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva bildirib ki, mayor Rasim Məmmədov Birinci Qarabağ müharibəsində sağlamlığını itirən atasının yolunu davam etdirən, qələbə qazanan oğullardan olub.

Şəhidin anası Nazilə xanım, həyat yoldaşı Samirə xanım diqqətə çatdırıblar ki, Rasimin övladlarını ona layiq şəkildə böyüdürlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Hacıfəxrəddin Səfərli Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan Rasim Məmmədovun üçrəngli bayrağımıza sarılıb Naxçıvana gətirildiyi gün qəhrəmanlığına layiq şəkildə qarşılandığından, onun xatirəsinin bu gün də yaşadıldığından bəhs edib.



Şəhidin qardaşı Şahin Məmmədov Birinci Qarabağ müharibəsində Sədərəkdə sağlamlığını itirən bir atanın, Vətən torpağının azadlığı uğrunda canından keçən oğulun qardaşı olduğu üçün fəxr etdiyini bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Babək rayon özəyinin sədri Afiq Həsənov diqqətə çatdırıb ki, Cəhri qəsəbəsi Birinci və İkinci Qarabağ müharibəsində, ümumilikdə, 8 şəhid verib. Onların qəhrəmanlığı ilə hər bir babəkli fəxr edir.

Sonda şəhidin ömür yoluna həsr olunmuş videoçarxa baxılıb, vətənpərvərlik mövzusunda mahnılar, şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiya göstərilib.

Qeyd edək ki, həmin gün Cəhri qəsəbə 2 nömrəli tam orta məktəbdə şəhidin adına verilmiş sinfin açılışı da olub. Qəhrəman şəhidin məzarı ziyarət edilib.

**Ramiyə ƏKBƏROVA**



# "Qurani-Kərim"dən:

**"(Ya Rəsulum!) Yoxsa "Əshabi-kəhf"in və Rəqimin (mağara və Rəqim əhlinin) ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? (Xeyr, bu Bizim qüdrətimiz qarşısında adi bir işdir!)"**

*"Əl-Kəhf" ("Mağara") surəsi, ayə 9*



# Ramazan aylarında daha çox ziyarət olunan müqəddəs məkan – "Əshabi-kəhf"

Naxçıvanda dini-mədəni inancların qorunub saxlanıldığı, möcüzəvi xüsusiyyətləri, sirli-sehrli görünüşü ilə diqqəti cəlb edən məkanlardan biri "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksidir. Müqəddəs Ramazan bayramında insanların ən çox ziyarət etdikləri bu ziyarətgah Culfa rayonunun ərazisində, Haçadağla Nəhəcir dağı arasındakı təbii mağarada qərar tutub.

Bu müqəddəs ocaq Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə "Əshabi-kəhf"in abadlaşdırılması və bərpa edilməsi barədə göstərişindən sonra yenidən qurulub, burada məscid tikilib, zəvvarlar üçün hər cür şərait yaradılıb. Paklığın, müqəddəsliyin rəmzi sayılan ziyarətgaha gedən yollar abadlaşdırılıb.

Tarixi eramızdan əvvəl III-I minilliklərə söykənən, adı müqəddəs kitabımız "Qurani-Kərim"də çəkilən "Əshabi-kəhf" insanı başqa bir aləmə aparır. İllərin sirrini, möcüzələrini özündə saxlayan qeyri-adi və nəhəng mağaralar insanı ziyarətin ilk dəqiqələrindən öz ağuşuna alır. Buradakı qaynar bulaq möcüzəvi aləmin göstəricisidir. Ziyarətgahdan bir qədər aralıda yerləşən bulağın suyundan müalicə məqsədilə də istifadə edilir. Ziyarətgahdakı məscidin qabağındakı "qaradaş" buraya ayaq basan hər bir ziyarətçinin baş çəkdiyi yerdir. İnsanlar həmin daşa toxunur, onun ətrafında dövr edərək niyyət tutur. Beləliklə, niyyətlərinin qəbul olunacağına inanırlar.

Məscidin yuxarı tərəfində yerləşən "Damcıxana"ya pilləkənlərlə qalxan zaman uzaqdan görünən qeyri-adilik insanı bir anlıq dayanıb mənzərəyə tamaşa etməyə vadar edir. Maraqlıdır ki, həmin yerdə ilin bütün fəsillərində tavandan su damır. İnsanlar daşların üzərində dayanaraq, ya da əyləşərək ürəklərində niyyət tutub gözləyirlər. Damcının başa və ya çiyinə düşməsi niyyətin tez hasil olunacağına işarətdir. Damcı düşməsə isə onun qəbul olunmayacağına inanılır.

Ziyarətgahda ən uca yer "Cənnət bağı"dır. Yaradılan şərait nəticəsində ziyarətçilər dəmir pilləkənlərlə bura rahat qalxa bilirlər. Hər tərəfdən yüksək qayalarla əhatə olunan bu bağ duaların qəbul olunduğu yer sayılır. Bütün dinlərin mənsublarının ziyarət etdikləri "Əshabi-kəhf"in müsbət aurası var. Bura günahların təmizləndiyi, insanı saflaşdıran, bütün ruhi əzablardan xilas etməyə qadir müqəddəs bir yerdir. Bu gün ziyarətgaha gələn yüzlərlə adam İslam dininin saf, təmiz, insanı mənən saflaşdıran, ucaldan, Allah qatında bir yerə sahib olduqlarını hiss etdirən müqəddəs din olduğunu daha dərk edir.

Dünya əhəmiyyətli "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi Naxçıvanın qədim tarixə malik olduğunu göstərir. Eyni zamanda İslam mədəniyyətinin paytaxtı olmuş muxtar respublikamızın dünya səviyyəsində təbliğinə, turizminin inkişafına öz töhfəsini verir. Uca Allah müqəddəs Ramazan ayında edilən ziyarətləri və duaları, tutulan orucları qəbul eləsin!

**Güntac ŞAHMƏMMƏDLİ**









*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Güloğlan Qədimovun anası Rəqsanə Qədimovanın, Kəngərli rayonunun Qabıllı kəndindən olan şəhidimiz Qurban İbrahimovun anası İntizar İbrahimovanın və Şərur rayonunun Çomaxtur kəndindən olan şəhidimiz Zülal Mədətlinin anası Şərəbanı Mədətovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Güloğlan Nurəddin oğlu Qədimov

*(18.07.1997-27.09.2020)*

### Mayor, general olması arzusu gözündə qalan şəhidim





Güloğlan çox sakit və mehriban, canlara dəyən övlad idi. Atasına çox oxşayırdı. Balaca vaxtı kənd içinə çıxanda deyərdilər ki, ot kökü üstündə bitər. Qaça-qaça evə gələrdi ki, ana, mən atama çoxmu oxşayıram? Deyirdim ki, hə, balam, çox oxşayırsan. Buna elə sevinirdi ki. Atasına çox bağlı idi. Bütün gününü onunla keçirirdi. Bəzi gücü çatan işlərdə atasına kömək edərdi.

Balacalıqdan hərbçi olmaq istəyirdi. Qıvraq qəsəbəsindəki məktəb hərbi hissənin yanında yerləşirdi. Dərsdən gəlirdi, deyirdi ki, ana, mən hərbçi olacağam. Bu arzu onu hərbi liseyə apardı.

Hərbi liseydən həftə sonları gəlirdi. Gəldiyi vaxtı bilirdim. Onu qarşılamaq üçün haralara qədər piyada gedirdim ki, Güloğlan gəlir. Onu sözlərimlə əzizləyə-əzizləyə evə gətirirdim ki, mayor balam, general balam gəldi. Oğlumla fəxr edirdim. Elə fəxr edirdim ki, onun hərbi lisey formasında evimizə gəlməyini özümə fəxarət bilirdim. Deyirdi, ana, gözlə mayor, general olacağam. Arzuları gözündə, ürəyində qaldı.



Akademiyanı bitirdikdən sonra işində sürətlə yüksəldi. Leytenant idi. Amma onu bölük komandiri təyin etdilər. İşləri də çox yaxşı idi. Yeni vəzifə aldıqca daha çox sevinirdi. Komandiri ona demişdi ki, yeni vəzifə səni gözləyir. Yeni kursa yazılacaqsan. Lakin əcəl macal vermədi.

Elə sonuncu danışığımız da o oldu. Dedi ki, yeni vəzifə verəcəklər. Müharibə başladı. Nə qədər zəng vurduq, Güloğlana zəng çatmadı. İşdə idim. Hərbi hissədə işləyirdim. Hərbi hissənin rəisi gəlib dedi ki, 12 nəfər şəhidimiz var. Demə, həmin şəhidlərdən biri də mənim Güloğlanım imiş.

Sentyabrın 26-sı axşam atasına zəng vurur. Deyir ki, biz qabağa gedirik. Hər an hər şey ola bilər. Olar ki, mənimlə əlaqə saxlaya bilməyəsiniz. Biz çıxırıq. Hələ ki, sakitlikdir, narahat olmayın. On günə, bir həftəyə sizinlə əlaqə saxlayacağam...

## Qurban Namiq oğlu İbrahimov

*(05.06.1998-04.11.2020)*

### Hər kəsə əl tutan böyük ürəkli şəhidimiz



Onun heç bir xatirəsi gözümün önündən getmir. Saatlarla xəyalıma gətirirəm. Oturub o xatirələrdən nə qədər istəsəniz danışaram. Onu qucağıma aldığım ilk gündən son günə kimi. Bu gün məni yaşadan da o xatirələrdir.

Qardaşları hərbçidirlər. Ona görə də istəmirdim ki, Qurban da hərbçi olsun. Amma özü dedi ki, ana, xahiş edirəm bu işimə qarışmayın...



Aldığı maaşı özünə xərcləmirdi. Bir neçə dostu ilə yığışıb imkansız ailələrə yardım edirdilər. Hətta bəzən özü ərzaq alıb aparıb bir uşağa verərdi. Özü də deyərmiş ki, deyin bir Allah bəndəsi göndərib. Qurban o böyüklükdə ürəyə sahib idi. Gözü-könlü də tox... Dünya malında gözü yox idi. Paltarı tam köhnəlməyənə qədər təzəsini almazdı.

Sonuncu dəfə evdən gedəndə bütün qış paltarlarını evə qoydu. Dedi ki, ana, mən təlimə gedirəm. Elə olar ki, yubanaram. Yuxarıda uşaqlarla birlikdə təlim keçəcəyik. Səhəri gözlədim. Fikirləşdim ki, ya gəlib yemək aparar, ya da göndərərəm. Zəng vurdu ki, ana, dağa gedirik. Dedim ki, a bala, bəs sən qış paltarlarını evə qoydun axı. Orada nə geyinəcəksən? Dedi ki, ana, orada paltar var. Demə, oğlum Qarabağa gedən təyyarənin yanında dayanıb mənimlə danışırmış.




Beləcə, döyüşə getdiyini məndən gizlətdi. Mən bir şəhidin yasında onun döyüşdə olduğunu öyrəndim. Yasda dedilər ki, kənddəki uşaqlardan da Bakıya aparıblar. Qurban da onlarla gedib. O biri oğlumun üstünə qaçdım. Oğlum məni qucaqladı. "Ağlama", – dedi. Qurban heç kəsdən əskik oğul deyil. O, Qarabağdadır. Vətən üçün döyüşür. Lazım gələrsə, biz də gedəcəyik.

Oğul kimi heç vaxt xətrimə dəymədi. Bilirsən, nə arzulayıram? Kaş ki Qurban bir dəfə də olsun xətrimə dəyərdi. Amma o mənə elə oğul oldu ki, ruhumu belə incitmədi. Lakin yoxluğu ilə məni yarım qoydu. Özünü isə Vətənə qurban verdi.

## Zülal Rəhim oğlu Mədətli

*(14.08.1991-19.10.2020)*

### Çox sevdiyi bayrağına sarılan şəhid





Zülal balaca vaxtından təbiəti çox sevirdi. Həyətə o qədər ağac əkib ki. Gördüyünüz bütün ağaclar, güllər onun nişanəsidir. Bir az böyüyəndən sonra qəssablıq da edirdi Zülal. Kənddə çox hörməti var idi. Hər kəsə əl tutur, köməklik göstərirdi. Çox yumşaq ürəyi var idi.

Zülal həm də çox vətənsevər uşaq idi. Balaca vaxtından bayrağımızla nəfəs alırdı. O, balaca olanda biz bir müddət Türkiyədə yaşadıq. Orada şəklini çəkəndə tez bayrağa sarılırdı. Balaca vaxtı İran ərazisi ilə Bakıya gedirdik. Bir dəfə Arazın qırağından keçəndə işğal olunmuş torpaqlarımızı ona göstərdim. Dedim ki, bax, ermənilər bizim o torpaqlarımızı işğal ediblər. Orada inəklərini otarırlar. Dedi, ana, qoy mən böyüyüm, gedib o ermənilərin dərsini verəcəyəm. O danaları da kəsəcəyəm. Zülal necə dedisə, elə də etdi.

Getdi müharibəyə. Qəhrəmancasına döyüşdü. Onlarla ermənini qanına qəltan etdiyini deyir yoldaşları... Onların inəklərini və heyvanlarını kəsərək ətini əsgərlərə yedirib. Bu hadisələri videoya çəkib mənə göndərmişdi. Bax qisas hissini içində belə böyütmüşdü Zülalım.

Kəndimizdən olan şəhid Aqil İsmayılovun nəşini gətirəndə Zülal kənddə idi. Hələ müharibəyə getməmişdi. Aqilin atasına demişdi ki, Əli əmi, mən gedib Aqilin qisasını alacağam. Onun qanını yerdə qoymaram. Dediyi kimi etdi Zülal. Onun döyüşdə necə qəhrəmanlıq göstərdiyini, Aqilin qisasını necə aldığını yoldaşları danışıb.

Mən bu gün fəxrlə deyirəm ki, Zülal Vətən müharibəsində igidlik göstərib, qəhrəmancasına vuruşub. Şəhidlərimizin qisasını alıb. Oğlum təkcə 2020-ci ildəki şəhidlərimizin yox, 1990-cı ildən bu günə qədər olan bütün şəhid balalarımızın qisasını alıb.

Zülal iki körpə balasını, qarayaylıq yoldaşını bizə əmanət edib canını Vətəninə qurban verdi.

Bizi də çox istəyirdi. Həmişə deyirdi ki, ay ana, ay ata, Allah mənim ölümümü sizin qabağınızda etsin. Sizə bir şey olsa, mən sizsiz yaşaya bilmərəm. Deyirdim ki, ay Zülal, elə demə. Heç olmasa mənə yazığın gəlsin.

Zülalın dediyi kimi də oldu. Allah onu bizdən alıb apardı. Zülalın bütün istəkləri yerinə yetdi. Canını çox sevdiyi Vətəninə, torpağına, bayrağına qurban verdi. Çox sevdiyi



bayrağına əbədi olaraq sarıldı mənim Zülalım!

# Zəfərin Aprel Zirvəsi



Xalqımızın böyük Zəfərə gedən yolunun başlanğıcı 8 il bundan əvvəl Aprel döyüşləri ilə qoyulub. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu Azərbaycan mövqeləri və yaşayış məntəqələrini güclü artilleriya atəşinə tutması ilə başlayan döyüşlər zamanı ordumuz qısa müddət ərzində Ermənistan silahlı bölmələrinə layiqli cavab verdi. Təxribat nəticəsində şəhidlər verdik, yaralılarımız oldu, mülki şəxslər arasında azyaşlı uşaqlar da var idi. Ordumuzun şücaəti və cəsarəti hesabına aprelin 3-də Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər azad edildi. Aprelin 4-ü Ermənistan silahlı qüvvələri itirilmiş mövqelərinin geri qaytarılması məqsədilə cəbhənin Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edərək təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv atəşə tutdu. Moskva şəhərində Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilən razılaşmaya əsasən aprelin 5-də Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırıldı. Buna baxmayaraq, həmin gün Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri Ermənistan Respublikasının Mehri, Sisian və Cermuk rayonları ərazisindəki mövqelərdən iriçaplı silahlar və qumbaraatanlardan atəşə tutuldu. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən qarşı tərəf dəqiq cavab atəşi ilə susduruldu.

***Döyüşlər nəticəsində***

Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnən döyüşlərdə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində üçrəngli bayrağımız dalğalandırıldı. Dövlət başçısının 2017-ci il yanvarın 24-də imzaladığı müvafiq Sərəncamla Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayış bərpa edildi, məcburi köçkünlər öz ata-baba yurdlarına qovuşdular. Yeni salınan qəsəbənin açılışında iştirak edən ölkə başçısı demişdir: ***"Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır".***

2016-cı il aprelin 19-da dövlət başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı" adı, 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə təltif edilib.

***Aprel döyüşləri onu sübut etdi***

Aprel döyüşləri onu göstərdi ki, Azərbaycan Ordusu güclü, qüdrətli, yenilməz ordudur, xalqımız qəhrəman, əzmkar xalqdır. Bir daha onu göstərdi ki, biz işğalla heç vaxt barışmayacağıq. Xalq-iqtidar birliyinin möhkəmliyini, Qarabağ münaqişəsinin həllinin bizim üçün prioritet məsələ olduğunu ortaya qoydu. Ermənistanın uzun illər ərzində öz ordusu haqqında yaratdığı miflər, əfsanələr darmadağın edildi, güclü ordunun Azərbaycan Ordusu olduğunu göstərdi. Bu döyüşlər Ermənistanın torpaqlarımızı işğal altında saxlaya bilməyəcəyini bir daha təsdiq etdi.

***Aprel döyüşlərindən böyük Zəfərə***

2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşdə demişdir: ***"Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".*** Belə də oldu. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində xalqımızın əbədi və əzəli torpaqları ölkə başçısının qətiyyətli siyasi iradəsi, Ordumuzun şücaəti, qəhrəmanlığı hesabına işğaldan tamamilə azad edildi. Lələtəpədən başlanan şərəfli yol böyük Zəfərlə bitdi. Torpaqlarımızda üçrəngli bayrağımız əbədi dalğalandırıldı. Bu gün də Ermənistanın törədə biləcəyi hər hansı təxribatın qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınır.

*Biz bu böyük, qürurverici Zəfəri şəhid və qazilərimizə borcluyuq. İstər Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərərək şəhid olmuş mayor Rasim Məmmədov, leytenant Qabil Orucəliyev, eləcə də digər şəhidlərimiz, Vətən müharibəsində, topaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ruhunu daim yaşadacağıq.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Cəhridən Lələtəpəyə uzanan əbədiyyət yolu



Şəhidlik müqəddəs, ülvi addır. Şəhidlik elə bir zirvədir ki, o zirvədən baxanda yalnız Vətən görünür. Vətən yolunda canından keçən ordumuzun hər bir əsgəri, zabiti bu zirvəni fəth edən qürurumuz, fəxrimizdir. Aprel döyüşlərinin şəhidi ***Rasim Əbdül oğlu Məmmədov*** kimi…

Onun da həyat yolu digər şəhidlərimiz kimi örnəkdir. Rasim Məmmədov 1977-ci il mayın 20-də Babək rayonunun Cəhri qəsəbəsində dünyaya göz açmış, 1983-1994-cü ildə Cəhri qəsəbə tam orta məktəbində təhsil almışdır. 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə daxil olmuş, 2000-ci ildə həmin məktəbi Tank qoşunları komandanı ixtisası üzrə bitirmişdi. Müxtəlif illərdə leytenant, baş leytenant, kapitan rütbəsi ilə müxtəlif vəzifələrdə çalışmışdı. 2011-ci ildə Rasim Məmmədov mayor rütbəsi alır və şəhid olduğu günə qədər motoatıcı taborun komandiri vəzifəsində çalışır. 2016-cı ilin aprel ayında Azərbaycan Ermənistan təmas xəttində baş verən döyüşlərdə qəhrəmancasına iştirak edir, atışma zamanı şəhid olur. Şəhidimiz aprelin 5-i doğulduğu qəsəbədə son mənzilə yola salınır. Rasim Məmmədov övladlarını bu Vətənə yadigar qoyur.

Qardaşı Şahin Məmmədovla söhbətimiz zamanı dedi:
– Şəhidimiz haqqında danışmaq qardaş kimi mənə çətin, həm də qürurvericidir. O, zabit kimi zabit, qardaş kimi qardaş, dost kimi də dost idi. Atam Əbdül Məmmədov 1990-cı illərdə könüllü batalyonun komandiri, sonra ilk zabitlərindən biri kimi 1992-ci ildə Sədərəkdə strateji yüksəklik olan Miltəpədə gedən döyüşlərdə iştirak etmiş, ayağından aldığı güllə yarası ilə uzun illər yatağa məhkum olmuşdu. Elə o vaxtdan Rasim atamın yanında olmağa can atır, hərbçi olmaq istəyirdi. Atam qardaşımın şəhadətindən 23 gün sonra dünyasını dəyişdi.

"Rasim atamın yolunu davam etdirib, qisasını alacağam deyirdi. İstəyinə nail oldu, hərbi məktəbə qəbul olub daha sonra xidmətinə başladı. 2016-cı ildə Aprel döyüşləri zamanı o da digər Vətən oğulları kimi, ön sıralarda oldu, torpaqlarımız uğrunda savaşdı. Hər dəfə evə zəng edəndə hər şeyin yaxşı olduğunu deyirdi. Son dəfə zəng edəndə dedi ki, atama deyin qisasını aldıq. Qardaşım Lələtəpə yüksəkliyini azad edərkən böyük qəhrəmanlıq göstərərək şəhadətə qovuşdu. O, əsl qəhrəman idi. Çünki o, I Qarabağ müharibəsi əlili Əbdül Məmmədovun oğlu idi, onun tərbiyəsini almışdı. Biz ailəcə Vətənimizə xidmət etməkdən həmişə qürur duymuşuq. Böyük qardaşım Aslan Məmmədov atamla bərabər könüllü olaraq döyüş bölgələrində olub. Mən 1999-cu ildə hərbi xidmət zamanı 2-ci qrup əlil olmuşam, böyük qardaşımın xanımı Könül Məmmədova 44 günlük Vətən müharibəsində tibb bacısı kimi könüllü olaraq cəbhədə xidmət edib", – deyir müsahibim. Həmçinin onu da qeyd etdi ki, torpaqlarımız uğrunda canlarını fəda edən şəhidlərimizin adlarını yaşatmaqdan ötrü "Vətən fədailəri" layihəsi çərçivəsində Manya Səxavətqızı ilə birlikdə Naxçıvandan, eləcə də digər bölgələrdən olan şəhidlər haqqında məlumat toplayıb, kitablar çap edirlər.

Rasim Məmmədov ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən Uğrunda" və "Qüsursuz xidmətə görə" II dərəcəli medalları ilə təltif edilib.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev demişdir: ***"Torpaq, Vətən naminə, müstəqillik naminə şəhid olan insan ən yüksək zirvəyə çatmış insandır".*** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onları daim qəlbimizdə yaşadacağıq!

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Mən atamın davam edən həyatıyam

***Bir şəhid oğlunun dilindən***

Bu mənəm, anamın gözünün nuru, atamın üzümü görmədiyi, onun azad etdiyi torpaqlarda ilk addımını atan onun adaşı Qabil. Mən Aprel qələbəsi ilə yaşıd kiçik oğlan uşağı, atamın göy üzündəki qanadı, bu dünyada davam edən həyatıyam. Mən dünyaya gəlməzdən öncə atamla yoldaşları düşməni qovublar yurdumuzdan. Özü əbədiyyətə gedib ancaq. Mən azad Vətənin övladı olum deyə o, canından keçib. Oğullarımız azad yaşasın deyib. Böyüdükcə onun haqqında nağıllar danışır anam mənə, elə bilir uşağam hələ başa düşmürəm. Mən hər şeyi bilirəm, atamın biz xoşbəxt yaşayaq deyə şəhid olduğunu da, onun necə bir igid olduğunu da. Ayaq tutub yeriyəndə onun məzarı başına getdim, başı üstə dalğalanan bayrağa, sinəsini bəzəyən medallara baxdım. Kiçik əllərimlə sinədaşına güllər qoydum. O anda sanki göz-gözə gəldik. "Mənimlə fəxr et, oğlum, incimə sizi qoyub getdiyim üçün. Mən, balalarım məğlub xalqın övladı kimi böyüsün istəmədim. Azad atanın, azad Vətənin övladı ol istədim və bu yolda canımdan keçdim. Hərbi formanı geyinməkdən, Vətən müdafiəçisi olmaqdan qorxma. İzimlə addımla. Vətənin müdafiəsi yolu çətin olsa da, şərəflidir, qürurludur, əbədidir. Başın üstə dalğalanan bayrağa baxanda qürur duy, çünki sən qalib xalqın xoşbəxt övladısan", – dedi.




Zaman məni yaşıdlarımdan daha tez böyüdəcək. Çünki mən atamın yolunu davam etməyə tələsən körpəyəm. Mən böyüyüb atamın azad edib, bizlərə əmanət qoyduğu Vətənin hər qarışını qorumaq istəyirəm.

✍ **Ramiyə ƏKBƏROVA**



# Məmməd Arazın təhsil aldığı, üç əsrə şahidlik edən məktəb

Məşhur bir aforizmdə deyilir ki, tarixə düşmək özü də uğur hesab edilir, amma ən böyük uğur tarixin qatarında bu günə gəlib çatmaq və gələcəyə getməkdir. Bu baxımdan bir əsrlik inkişaf salnaməsi yazan Naxçıvan Muxtar Respublikasında həm "yaşı", həm də özünəməxsus təhsil ənənələri ilə seçilən Şahbuzkənd tam orta məktəbi də tarixin keşməkeşli yollarında əsən burulğanları yararaq günümüzədək nümunəvi şəkildə gəlib çıxıb və gələcəyə doğru inamla addımlayır. Rayon mərkəzindən 7 kilometr cənub-şərqdə yerləşən bu təhsil ocağı yarandığı tarixin iki əsrini arxada qoyub, üçüncü əsrini yaşayır...

Ötən günlərdə üç əsrin məktəbində olduq, təhsil ocağında 43 il pedaqoq kimi, 9 il direktor vəzifəsində çalışan, hazırda təqaüddə olan tarix müəllimi İsax Qurbanovla məktəbin keçmişinə nəzər saldıq. İsax müəllim dedi: "Bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən olan Naxçıvanda elmə, maarifçiliyə daim böyük diqqət göstərilib. Bu inkişaf XIX əsrin sonlarında daha da yüksəlib, maarifçilik ideyaları böyük bir hərəkata çevrilib, yeni tipli məktəblər açılıb".

İsax Qurbanov qeyd etdi ki, XIX əsrdə Naxçıvan qəzasında yaradılan, xalqın maariflənməsində mühüm rolu olan təhsil ocaqlarından biri də Şahbuzkənd məktəbidir. 1896-cı ilin dekabrında açılan təhsil ocağı 1904-1905-ci tədris ilinədək ikisinifli rus-tatar, sonra dördsinifli məktəb kimi fəaliyyət göstərib. 1923-1924-cü tədris ilindən 1937-ci ilədək səkkizillik məktəb statusu daşıyıb, 1937-1938-ci tədris ilində zərurət yarandığı üçün orta məktəbə çevrilib. Orta məktəb kimi ilk buraxılışı növbəti dərs ilində olub və 17 məzuna attestat təqdim edilib. Arxiv sənədlərindən məlum olur ki, ilk olaraq məktəbə Zaqafqaziya Müəllimlər Seminariyasının məzunu Mirzə Məhəmməd Zamanbəyli direktor təyin olunub, şəriət dərslərini Möhsün Axundzadə tədris edib. Əvvəlcə dərslər Naxçıvan xanlarına məxsus yaşayış evlərində keçilib, sonralar onların vəsaiti hesabına məktəb binası tikilib. Bu təhsil ocağının fəaliyyəti ilə bağlı sənədlərin birində göstərilir ki, 1909-1910-cu tədris ilində Cəfərqulu xan Naxçıvanski Şahbuzkənd məktəbində təhsil alan şagirdlərə məktəbli ləvazimatları hədiyyə edib, hədiyyə alanların içərisində Zərifə və Zəhra adlı iki qız da olub. Bu da onu deməyə əsas verir ki, həmin tədris ilindən məktəbdə oğlanlarla yanaşı, qızlar da təhsil almağa başlayıb.



1918-1920-ci illərdə məlum hadisələrlə əlaqədar məktəb müvəqqəti olaraq fəaliyyətini dayandırıb. Naxçıvanda sovet hakimiyyəti qurulandan sonra təhsil ocaqları Xalq Maarif Komissarlığının nəzarətinə verilib. Yenidən fəaliyyətə başlayan Şahbuzkənd məktəbinə 1923-1924-cü tədris ilində Qori Müəllimlər Seminariyasının məzunu Sadıq Xəlilov direktor təyin olunub. Həmin zaman məktəbdə 39 şagird təhsil alırmış. 1928-1929-cu tədris ilində şagirdlərin sayı iki dəfəyə yaxın artaraq 72 nəfər olub ki, onların da 6-sı qız idi. İkinci Dünya müharibəsinin acı nəticələri bütün təhsil müəssisələri kimi Şahbuzkənd məktəbinin fəaliyyətinə də mənfi təsir göstərib, şagirdlərinin sayı azalıb. Buna səbəb isə valideynləri müharibəyə yollanan yeniyetmə və gənclərin ailələrini dolandırmaq üçün kolxoz və sovxozlarda işləmək məcburiyyətində qalması olub.



### *Bu məktəb rayonun yeganə təhsil ocağı idi*

İsax müəllimin sözlərinə görə, rayonda yeganə təhsil ocağı olan Şahbuzkənd məktəbinə bütün kəndlərdən şagirdlər gəlirdilər: – Təbii ki, o zaman üçün bu heç də asan iş deyildi. Görün bu kəndlə rayonun digər yaşayış məntəqələri, Nursu, Kükü, Keçili arasında neçə kilometrlər var. Lakin danılmaz və qürurverici həqiqətdir ki, bütün zamanlarda insanların təhsil almaq istəyi uzaq məsafələri yaxın edib. Naxçıvan şəhərindən, muxtar respublikanın digər rayonlarından gəlib kənddə hansısa qohum, tanış evində qalaraq bu məktəbdə oxuyanlar da az olmayıb. Bütün bu illər ərzində məktəbin məzunlarının sorağı təkcə yurdumuzun bölgələrindən deyil, hətta kənarlardan da gəlib. Xalq şairi Məmməd Araz, görkəmli alim Firudin Hüseynov, tibb elmləri doktoru Şəmsi Əsədov, Azərbaycan Respublikasının Əməkdar artisti Yaşar Səfərov, Əməkdar həkim Arif Rzayev, biologiya üzrə fəlsəfə doktoru Musa Piriyev, riyaziyyat elmləri namizədi İbrahim Rüstəmov, şahbuzlu ilk polkovnik-leytenant qadın Xanımzər Nabatəliyeva, həkimlər Məmmədəli Quliyev, Şəmsi Əsgərov, Elsevər Ağəliyev, Vəli Qəhrəmanov bu məktəbin yetirmələridir.

Hazırda təhsil müəssisəsinin adını daşıdığı Mirzə Sadıx nəslinin davamçıları uzun illər məktəbdə pedaqoji fəaliyyətlə məşğul olublar. Onun oğlu, İkinci Dünya müharibəsi veteranı Əli Xəlilov məktəbdə 70 il Azərbaycan dili və ədəbiyyatı fənnini, hətta lap əvvəllər – ixtisaslı müəllimlərin olmadığı illərdə rus dilini yaxşı bildiyi üçün bu fənni də tədris edib. Mirzə Sadıxın nəvəsi Əfrasiyab Xəlilov məktəbdə 50 il müəllim, 18 il direktor kimi çalışıb, 2006-cı ildə məktəbin 110 illik yubileyində "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb.



### *Müasir tədris avadanlıqları, nümunəvi fəaliyyət*

Məktəbin hazırkı direktoru Xəqani Həzrətquliyev təhsil ocağının müasir dövrü barədə söhbət açdı: – Şahbuzkənd məktəbi muxtar respublikamızın qədim kökə, zəngin təhsil ənənələrinə malik elm ziyası yayan ocaqlarındandır. Hamımıza məlum olduğu kimi, Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə böyük quruculuq siyasəti həyata keçirildi. Reallaşdırılan kompleks inşaat işləri kəndimizə, eləcə də məktəbimizə yeni həyat bəxş etdi. 2008-ci ildə kənddə 216 şagird yerlik ikimərtəbəli yeni məktəb binası istifadəyə verildi. Məktəbdə iki elektron lövhəli, bir kompüter sinfinin, STEAM otağının yaradılması şagirdlərin müasir texnologiyaların sirlərinə dərindən yiyələnmələrinə, intellektual səviyyələrinin məntiqi cəhətdən inkişafına xidmət edir. Burada gənc nəslin düzgün, sağlam fiziki keyfiyyətlərə malik olması üçün lazımi avadanlıqlarla təchiz edilən geniş idman zalı da var. Məktəbdə bir laboratoriya, fondunda 3498 kitab (972 dərslik, 2526 bədii ədəbiyyat) olan kitabxana da fəaliyyət göstərir.

Hazırda Şahbuzkənd tam orta məktəbində 72 şagird təhsil alır. Hər il ali məktəblərə qəbulun səviyyəsinə görə təhsil ocağı öz nümunəviliyini qoruyub saxlayır. Son 3 tədris ilinin göstəriciləri də bu baxımdan ürəkaçandır. Belə ki, 2020-2021-ci tədris ilində məzun olmuş 9 şagirddən 4-ü, 2021-2022-ci tədris ilində məzunların hamısı, 2022-2023-cü tədris ilində isə 6 şagirddən 3-ü ali təhsil müəssisələrinə qəbul olub. 2023-2024-cü tədris ilinin də bu baxımdan uğurlu olacağı gözlənilir. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Şahbuzkənd tam orta məktəbi səmərəli fəaliyyətinə görə Fəxri fərmanla da təltif olunub. Sözsüz ki, onilliklər boyu özünəməxsus təhsil ənənələrinin davam etdirilməsinin, tədrisin keyfiyyətinin nəticəsidir ki, burada çalışan 23 müəllimdən 14-ü məktəbin məzunudur. Onların hər biri bu məktəbin qədim ənənələrini qoruyub yaşadan, yeni nəsillərə öyrədəndir. Şahbuzkənd həm də qəhrəman şəhidləri Emin Sadiqov və Cavid Bayramlı ilə öyünür, fəxr edir. Sözsüz ki, həm bu igidlərin xidməti fəaliyyətinin, döyüş yolunun, həm də vaxtilə məktəbin məzunu olmuş ziyalıların irsinin aşılanması şagirdlərdə yüksək əxlaqi keyfiyyətlərin formalaşmasında, onların vətənpərvər ruhda tərbiyəsində əhəmiyyətli rol oynayır", – deyə o əlavə edib.

Deyirlər, keçmişini unudanın gələcəyi olmaz. Bu gün Şahbuzkənddə fəaliyyət göstərən çinar ömürlü bu təhsil ocağının müəllimləri şagirdlərin gələcəyinin sağlam təməllər üzərində qurulmasına çalışmaqla yanaşı, məktəbin dünəni barədə bildiklərini aşılamaqla həm də bir məktəbin timsalında tarixi keçmişimizə çıraq tutmağı ümdə vəzifələrdən hesab edirlər. İnanırıq ki, tarixi köklər, sağlam prinsiplər üzərində elm ziyası yayan bu təhsil ocağının hələ qarşıdakı illərdə qazanacağı uğurlar daha da çox olacaq. Bu nailiyyətlər ölkəmizin ictimai həyatına neçə-neçə ziyalılar bəxş edəcək...

**Nail ƏSGƏROV**

## *"Naxçıvan Muxtar Respublikası-100"* adlı elektron məlumat bazası istifadəçilərə təqdim olunub

Azərbaycan Milli Kitabxanasında yaradılan "Naxçıvan Muxtar Respublikası-100" adlı elektron məlumat bazası onlayn rejimdə istifadəçilərə təqdim olunub.

Kitabxanadan bildirilib ki, məlumat bazasında "Rəsmi sənədlər", Naxçıvanın tarixi, coğrafiyası, mədəniyyəti, görkəmli şəxsiyyətləri, Naxçıvan Muxtar Respublikası haqqında nəşrlər, fotoqalereya və digər materiallar yer alıb.

Prezident cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı Naxçıvanın zəngin dövlətçilik tariximizdə, ölkəmizin inkişafında mühüm yer tutduğunun göstəricisidir.

Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və şərəfli bir yol qət edib. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşıb. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynayıb. Naxçıvan antik və orta əsrlər dövrünə aid Türk-İslam mədəniyyəti nümunələri və tarixi abidələrlə – qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

Elektron məlumat bazası ilə tanış olmaq istəyənlər *https://anl.az/el/emb/Naxchivan-100/index.html* linkindən istifadə edə bilərlər.

## Jurnalistika ixtisasında təhsil alan tələbələrlə görüş keçirilib

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini İlhamə Novruzova, "Şərq qapısı" qəzetinin baş redaktor müavini Məmməd Babayev Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan tələbələrlə görüş keçiriblər.

Görüş istedadlı tələbələrin bacarıqlarını üzə çıxarmaq, onlarda televiziya və mətbuat sahəsinə maraq yaratmaq məqsədi daşıyıb.

Görüşdə tələbələri maraqlandıran suallar cavablandırılıb.



# Bir əsrlik muxtariyyətin 95 yaşlı yallı kollektivi

Xalqımızın birliyi, həmrəyliyi deyəndə ilk olaraq gözlərimiz önündə Qəmiqayadakı, Qobustandakı qayaüstü təsvirlər canlanır. Bu da təbiidir, Qavaldaşın ritmləri ilə insanların ayaq ritm sədaları min illərdir, qəlb döyüntüsü kimi ruhumuza sığal çəkir. Hələ ibtidai insanların formalaşdığı bir vaxtdan yallı meydana gəlmiş və bu günümüzə kimi qorunub saxlanılmışdır. Əcdadlarımız zurna və nağaranın müşayiəti ilə çiyin-çiyinə halay çəkib məclisləri cuşa gətirən ayaq ritmləri ilə tarix salnaməmizə öz möhürünü vurmuşdur.

Bəli, Nuhun yurdu ulu Naxçıvan təkcə daşlaşan tarix yaddaşı Gəmiqaya, yeraltı və yerüstü sərvətləri, tarixi şəxsiyyətləri, memarlıq abidələri ilə deyil, həm də ən qədim folklor nümunələrimiz, xüsusən də yallıları ilə məşhurdur. Bu əzəmətli rəqs növü ilkin formasından odun, ocağın ətrafında dövrə halında oynanılır və hətta tədqiqatçı alimlərin fikrincə, Günəşi də simvolizə edirdi. Yallının beşiyi sayılan Şərur elində sıra dağlar kimi sədd halında düzülən insanlar indi də ən xoş günlərində bərabərliklərini bu cür ehtiva edirlər. Bir növ bu düzülüş qaydası elimizə göz dikən yağı düşmənə qarşı gözdağı rolunu oynayıb. “Kitabi-Dədə Qorqud” boylarında Oğuz ellərinin həyat tərzi sözlə, fikirlə çatdırılıbsa, yallılarda qara zurna sədaları ilə kollektiv rəqslə, ritmik hərəkətlərlə ifadə olunub. Qədim elin insanları illərdir ki, “Nurani”sindən, “Gənclər yallısı”na, bundan da “Şərur qönçələri”nə kimi müxtəlif yaş hədlərində yaradılmış yallı qrupları ilə ayrı-ayrılıqda bu qədim ənənəvi mirası yaşadırlar. Elə buradaca onu vurğulamağa dəyər ki, yallı sovet dönəmində dünyanın bir sıra ölkələrində Azərbaycan incəsənətinin bu əbədiyaşar növünü nümayiş etdirərək yüksək mükafatlar alıb.

Mütəxəssislərin fikrincə, Şərurda 100-dən artıq yallı növü mövcuddur. Keçmişdən bu günə kimi o qiymətli sənət incilərinin bir çoxunu bölgə sakinləri el məclislərində, mərasimlərdə, toy-düyünlərdə yaşadaraq bu günümüzə kimi gətirib çıxara bilmişlər. Zaman-zaman böyük şəxsiyyətlər, görkəmli sənət adamları Şərur elini “yallıların beşiyi” adlandırıblar...

...Dahi bəstəkar Üzeyir Hacıbəylinin SSRİ Ali Sovetinə bu rayondan deputatlığa namizədliyi irəli sürülmüşdü. Onun seçiciləri ilə görüşə gəlməsi zamanı konsert proqramı təşkil edilir. Yallı bəstəkarın çox xoşuna gəlir. Elə konsert zamanı dahi bəstəkar Şərur yallılarına yüksək qiymət verərək deyir: “Azərbaycanda da yallılar var, amma yallı Şərurda doğulub. Yallının məkanı Şərurdur”.

Haşiyə. Bir neçə il əvvəl Bakı şəhərində yaşayan şərurlu həmkarlarımızdan birinin övladının toy ziyafətində iştirak edirdik. Öncə onu deyim ki, salona girəndə özümüzü Naxçıvanda hiss etdik. Belə ki, hər şey Naxçıvan toylarında gördüyümüz kimi idi. Təbii ki, ziyafətə dəvət olunanların da böyük əksəriyyəti naxçıvanlılar idi.

Bir qədər sonra elan olunan Şərur yallısı ilə bütün diqqət rəqs üçün ayrılmış meydançaya yönəldi. Təəssüf ki, yer azlıq edirdi. Ən böyük birlik, həmrəylik, cəngavərlik rəmzi olan yallını sanki yenidən kəşf etdik...

***“Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallını qoruyub saxlayın. Bu Naxçıvanın tacıdır”.*** Bu sözləri ölkəmizə rəhbərliyi dövründə – ötən əsrin 70-ci illərində Bakı şəhərində keçirilən “Naxçıvan mədəniyyəti günləri”ndə iştirak edən “Şərur yallısı”nın çıxışından sonra Ulu Öndər ansambl üzvləri ilə görüşündə deyib.

Ümummilli Liderimizin tövsiyəsinə sədaqətin və ehtiramın ifadəsidir ki, yallı sənətinin inkişafı sahəsində uğurlu addımlar atılıb, yallılar ilk dəfə nota köçürülüb, onun əsasında “Naxçıvan-Şərur el yallıları” kitabı nəşr olunub.

“Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərdə Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilmiş qərarla YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2019-cu ilin 21 dekabrında “Şərur yallılarının reyesteri”nə daxil edilməsi nəzərdə tutulan yallılara dair məlumatlar haqqında qəbul olunan Qərara əsasən “Köçəri”, “Göyçəməni”, “Tənzərə”, “Baharı”, “Xələfi”, “Qaleyi”, “Nareyi”, “Xəlili”, “Bəndil”, “Gilani” və sair yallıların da adları “Şərur yallılarının reyesteri”ndə özünə yer alıb.

Bu yazını qələmə alarkən jurnalist Sara Əzimovanın “Sarı gəlin” yallısı haqqında “Azərbaycan” qəzetinin 2012-ci il avqust ayının 26-da dərc olunmuş məqaləsini xatırladım. Müəllifin bu yallı ilə bağlı dedikləri çox maraqlıdır. S. Əzimova “Nurani” ansamblının üzvlərindən biri olan Azərbaycan Respublikasının Əməkdar artisti Kamal Babayevin adıçəkilən yallı ilə bağlı dediklərini qələmə alıb yazır: “Şərur rayonunun Tənənəm kəndində yaşamış zurnaçalan İsa Allahverdiyevdən “Sarı gəlin” yallısının adını çox eşitmişdim. O deyirdi ki, ötən əsrin 30-cu illərində Moskvada festival keçirilirdi. Həmin festivalda Həsən bəy adlı bir nəfərin rəhbərliyi ilə “Şərur” xalq yallı ansamblı “Sarı gəlin” yallısını ifa etmişdi. O zaman bu yallı böyük əks-sədaya səbəb oldu, onu ayaq üstə alqışladılar”. Onu da qeyd etmək lazımdır ki, bu yallı eyniadlı xalq mahnımız əsasında yaradılıb. Xalq təfəkkürünün məhsulu olan “Sarı gəlin” yallısı barədə xalqın yaddaşında yaşayan bilgilər var. Amma, təbii ki, bunun elmi cəhətdən araşdırılmasına da böyük ehtiyac duyulur. Ən önəmli və etibarlı mənbə isə elə xalqın özüdür. Xalq heç bir musiqi təhsili almadan bu yallını yaradıb, nəsildən-nəslə ötürüb. Gəlin bunu unutmayaq: Naxçıvanın incisi sayılan yallı bizim qanımızdan, milli kökümüzdən gəlir. İmkan verməməliyik ki, nə zamanın keşməkeşləri, nə də ki, müasirləşmə, yeniləşmə yallılarımızı unutdursun! Onları göz bəbəyi kimi qorumalıyıq!

Son söz yerinə. “Şərq qapısı” qəzeti olaraq bir əsr yaşını böyük təntənə ilə qeyd edən muxtar diyarımızın 95 yaşlı rəqs kollektivini ürəkdən təbrik edirik.

Aidə İBRAHİMOVA

# İlk sevgim, son sevgim bu yurd, bu torpaq...

İstedadlı şair-dramaturq Asim Yadigarın imzası oxuculara yaxşı tanışdır. Yaradıcılığa ötən əsrin 70-ci illərindən başlayan şairin bu illər ərzində qəzet və jurnallarda, ədəbi almanaxlarda yüzlərlə şeiri, məqaləsi dərc olunub. Onun şeirləri İranda, Türkiyədə, Rusiyada nəşr edilən bir sıra qəzet və jurnallarda da işıq üzü görüb.

Asim Yadigarın yaradıcılığında vətənpərvərlik şeirləri həmişə üstünlük təşkil edib. Şairin “Hər şeyin sonu var” adlı son kitabındakı şeirlərinin əksəriyyəti, eləcə də 9 poemasının 8-i məhz Vətənə sevgi, məhəbbət ruhundadır. Ulu Öndərimiz Heydər Əliyevin “Azərbaycan dünyaya Günəş kimi doğacaq” aforizmini şair bir şeirində məharətlə işlədə bilib:

*Yollarında min tufan, yüz külək əssə belə,*
*Yağılar yolu üstə min silah düzsə belə,*
*Şərin qara əlləri yolunu kəssə belə,*
*Onu Tanrı qoruyur. O, zülməti boğacaq,*
*“Azərbaycan dünyaya Günəş kimi doğacaq”*

Şair “Azərbaycan Bayrağı” şeirində isə Azərbaycan Respublikasının Avropa Şurasının üzvü olmasından doğan sevincini önə çəkir. Avropa göylərində yellənən bayrağımızı xalqımızın nəfəsi, səsi, buxovları dağıdan, qandalları sındıran azadlıq nəğməsi kimi dəyərləndirir. Şairin sevinci, fərəhi xalqın sevincidir və fərəhidir. Çünki bayrağımızın dünya dövlətlərinin bayraqları içərisində dalğalanmasına hər birimiz qürurla, iftixarla baxmışıq. Ancaq şair bunu daha gözəl, daha obrazlı şəkildə deyib:

*Öz-özünə qalxmayıb, ucalmayıb o bayraq,*
*O bayrağı bayraqtək ucaldan, qaldıran var.*

Şairin “Azərbaycan dünyaya Günəş kimi doğacaq”, “Azərbaycan Bayrağı”, “Bir bayraq altında”, “Fəxri xiyabanda düşüncələr” şeirlərində Ümummilli Liderimiz Heydər Əliyevə sonsuz sevgi, məhəbbət hissləri önə çəkilib. Şair heykəltəraşa üz tutub deyir ki, “Əzəmətli, möhtəşəm, nurlu bir heykəl yarat”. Bu heykəl elə əzəmətli, elə möhtəşəm olsun ki, Ulu Öndərimiz Heydər Əliyevin qurduğu, yaratdığı, memarı olduğu Azərbaycandan da gözəl görünsün. Bu heykəl Ulu Öndərin adına yaraşan möhtəşəm bir heykəl olsun:



*Heykəltəraş qardaşım, bir nurlu heykəl yarat,*
*Heydərimin adına yaraşan heykəl olsun.*
*O heykəltək ucaltdı anam Azərbaycanı,*
*Qoy sənin yaratdığın ondan da gözəl olsun.*

Ədəbiyyatımızda “vətəndaş şair” ifadəsi son illərdə daha çox işlənir. Asim Yadigarın yaradıcılığına bələd olan hər bir oxucu bu sözü ona da şamil edə bilər.

Şairin “Tarix”, “Bir nağıl de”, “Bir olaq deyirik”, “Hücum əmri ver mənə”, “Döyüş havaları çaldırmalıyıq”, “Səngərim mənim”, “Azərbaycan əsgəri” və başqa şeirlərində vətənpərvərlik duyğuları daha qabarıq verilib. Şair “Tarix” adlı şeirində saxta tarixlər uyduran yalançı tarixçilərin boş hay-küylərinə kəskin nifrətini bildirir. Şair o fikirdədir ki, tarixlər saxtalaşdırılır. Belə olanda əfsanələr həqiqətə, həqiqətlər isə əfsanəyə çevrilir.

Xalqımızın başına gətirilən faciələr, ağrı-acılar, bir zamanlar torpaqlarımızın 20 faizinin yağı tapdağında olması şairi bir vətəndaş, bir insan kimi narahat edir. O özü də bir əsgər kimi silaha sarılmaq istəyini bəyan edir.

“İlk sevgim, son sevgim bu yurd, bu torpaq”, – deyən şairin Vətənin dünəni, bu günü, sabahı ilə bağlı düşüncələri onlarla şeirinin, poemalarının əsas mövzusunu təşkil edir. Şair hara gedirsə, harada olursa, Vətənin dərdi də onun yolyoldaşına çevrilir. Şairin cənub mövzusunda otuza yaxın şeiri, “Mənə söz verin” adlı poeması və “Midiyanın süqutu” mənzum dramı var. Bu əsərlərin hamısında Vətən sevgisi, Vətən məhəbbəti önə çəkilib.

Şair Təbrizin tarix dolu dününənə üz tutur. Mərd oğullar, qəhrəmanlar yetirən bir diyarın oğullarının, qızlarının ürəyində Şuşa tonqalı qalayır:

*Tarixdə çox sərtləşməyin olubdu,*
*Sərtləşməyin, mərdləşməyin olubdu,*
*Heç Şuşamla dərdləşməyin olubdu?*
*Düşürmü heç yada, Şuşam, Təbrizim?!*

Asim Yadigarın yaradıcılığında müxtəlif janrlı şeirlərlə rastlaşırıq. Şairin qoşma və gəraylıları, qəzəl və təxmisləri onu göstərir ki, o həm klassik şeir formalarından, həm də aşıq şeiri formalarından bacarıqla istifadə edə bilir. Şairin qoşmaları, gəraylıları, təcnisləri oynaq və axıcıdır:

*Ey qəlbimin nəmli dərdi,*
*Gəl bir günə sərim səni.*
*Ləçək-ləçək oxşamışdım,*
*Çiçək-çiçək dərim səni.*

Şairin onlarla lirik şeiri oxucuların sevdiyi şeirlərə çevrilib. Onun “Talesizlər” poeması əsasında gözəl bir radio-tamaşa hazırlanıb. Asim Yadigar 6 pyesin, 18 poemanın müəllifidir. Onun “Kədərə heykəl”, “Qisas qiyamətə qalmaz”, “Mənə söz verin”, “Oğul dağı”, “Mən Günəşi görürəm”, “Əgrək və Səgrək”, “İpar Sultan” və başqa poemaları da sırf vətənpərvərlik mövzusundadır. Şair istər müasir həyatımızdan, istərsə də tarixi mövzularda qələmə aldığı poemalarında oxucusuna Vətənə sevgi, məhəbbət duyğusu aşılayır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Yadigar şeirlərinin birində “Mən qatiləm – söz qatili, duyğu qatili, şeir qatili”, – deyir. İstərdik ki, ömrünün 70-ci zirvəsinə çatan şair bundan sonra da gözəl poetik duyğularını gözəl şeirlərə, poemalara çevirsin, oxucularını yeni kitabları ilə sevindirsin.

**Sədaqət NEMƏTOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü***

# Yurdumun şəfalı bitkisi – trüfel



Elə ki yaz gəldi, yağışlar yağmağa başladı, qədim yurdun bərəkətli torpaqlarında bitən şəfalı, min dərdin dərmanı olan bitkilər yerli sakinlərin ruzi-qazanc mənbəyinə, sağlam qida kimi isə süfrələrimizin bəzəyinə, ağız ləzzətimizə çevrilir. Bazarların piştaxtalarında cürbəcür çöl pencərləri, göbələk növləri görmək olur. Yurdumuzun saymaqla bitməyən bu nemətləri içərisində biri də var ki, dadı və şəfalı xüsusiyyəti ilə dünyada məhşurdur. Trüfel çox az ölkələrdə yetişir ki, bu ölkələrin arasında Azərbaycan da var. Müqəddəs Peyğəmbərimiz Məhəmməd (s.a.s.) buyurmuşdur ki, bu bitki Musa Peyğəmbərə (əleyhisalama) cənnətdən hədiyyə kimi göndərilmiş qüdrət halvası cinsindəndir.

Trüfel bu gün Avropa ölkələrində də məşhurdur, kürüdən sonra qiymətinə görə ikinci yerdədir. Hətta XV əsrdə trüfelin rahat tapılıb yığılması üçün müxtəlif heyvanlar da əhliləşdirilibmiş. Bu gün İspaniya, İtaliya və Fransada məşhur olan trüfel göbələyinin 1 kiloqramın qiyməti (növündən və ölçüsündən asılı olaraq) bir neçə min dollara çata bilir. Fransa, İtaliya, İspaniya, ərəb ölkələrində bu göbələk xüsusilə tez-tez istifadə olunur və sevilir. Kilosu 2000 avro dəyərindədir. Trüfel yalnız bahalı, elit restoranlarda desert kimi verilir, eyni zamanda gözəl ətri olduğundan az miqdarda yeməklərə qarışdırılır. Fransız aşpazları onu "məhsulların almazı" və ya "kral göbələyi" adlandırırlar. İtaliyada bu göbələk əsasında çox effektli cavanlaşdırıcı kremlər istehsal olunur. Bu kremlərin qiyməti olduqca bahadır. Bitkinin ən cəlbedici tərəfi isə xərçəng xəstəliyinin yaranmasının qarşısını almaq kimi xüsusiyyətə malik olmasıdır.



Havaların yağışlı keçməsi bu il muxtar respublikanın kəndlərində bu bitkinin çıxmasına səbəb olub.

Naxçıvan şəhərində Mərkəzi Bazarda bu bitkinin satışı ilə məşğul olan insanlarla həmsöhbət olduğumuzda öyrənirik ki, Kəngərli rayonunda, xüsusilə də Qabıllı, Babək rayonunun Qahab, Nəhəcir kəndlərində bu göbələyi tapmaq olur. Kəngərli rayonunun Xok kənd sakini ***İbrahim Abutalıbov*** gənc olmasına baxmayaraq, bitkini toplamaqda təcrübəlidir. Onun dedikləri:

– Göbələyin bir növü olan bitkini el arasında "dombalan" adlandırırlar. Səbəb isə onun tam yetişdikdən sonra torpağı şişkin göstərməsidir. Torpaq bir az şişmiş halda olur, o halda bilinir ki, orada bitki var. Yaşlıların dediyinə görə, bu bitki, adətən, qumluq təpələrdə yetişir. Hansı yerdə onun otu bitirsə, orada bu bitkidən olur. (Bu ot yemlik bitkisinə bənzəsə də, yeməli deyil. Onun trüfellə kök hüceyrələri bir olmasa da, yanaşı bitirlər). Bu göbələk növü yeddi ildən bir daha bol olur. Yaz yağışlarının ardından çıxan göbələyin bu növünə daha çox güney yerlərdə rast gəlinir. Yığılması o qədər də asan olmayan trüfelin satışından çox yaxşı gəlir əldə etmək olur. Bu bitki yeddi ildən bir bol olur. Son dəfə 2019-cu ildə Naxçıvanda bu göbələyin bolluğu yaşanıb. Müsahibim onu da deyir ki, Naxçıvan torpağının bu əvəzsiz nemətinə təkcə muxtar respublikanın bazarlarında deyil, ölkəmizin digər bölgələrində də tələbat çoxdur. Bakı şəhərindən gələn alıcılar gün ərzində yığdığımız göbələyin, demək olar ki, çoxunu alıb aparırlar. Qiymətinə gəldikdə isə irili-xırdalığına görə 20 manatdan 50 manata kimi dəyişir. Bizdə göbələyin qiyməti digər ölkələrlə müqayisədə qatqat daha aşağıdır. Bitkinin müalicəvi xüsusiyyətləri öyrənildikdən sonra tələbat artıb və onun qiyməti də bir neçə dəfə qalxıb. Lakin buna baxmayaraq, Azərbaycanda bu delikates məhsulun qiyməti Avropa və ərəb ölkələri ilə müqayisədə çox ucuzdur.

İbrahimin nənəsi ***Tovuz xanım***ın 90 yaşı var. Onunla söhbətləşir, bu bitkinin faydaları və necə bişirilməsi haqqında məlumat alırıq. Tovuz nənənin söhbəti:

– Bu torpağın hər qarışında bitən bitkilər cana dərmandır. Uzun illər nənələrimiz burada bitən kəklikotunu, yarpızı, nanəcövhəri bir çox xəstəliklərin müalicəsində istifadə ediblər. Bu göbələk növü isə min dərdin dərmanıdır. Elə ki yaz gəldi, rəhmətlik anam bizi də yanına alar, çöldə-bayırda bitən pencərlərdən, göbələkdən yığıb gətirərdik. Onların içərisində ən dadlı olanı hamımızın sevdiyi bu göbələk idi. Onu yaxşıca yuyub, qalın mis tavaya tökər, içinə də azca qovurmanın yağlı tikələrindən əlavə edib təndirdəki közlərin üstünə qoyub, qapağını örtərdi. Su tökməzdi, çünki öz suyu çıxanda daha dadlı olur deyərdi. Təndirdə közün üstündə buğlana-buğlana bişən göbələklər yağa düşüb yaxşıca qızarardı. Təndirdən təzə çıxmış lavaşla göbələyin dadı quzu kababından da ləzzətli olurdu.

Nənə onu da bildirir ki, yaz göbələyinin qabığını soymaq bitkinin xeyirli xüsusiyyətlərini azaldır, ən yaxşısı göbələyi suya töküb bir az saxlamaqdı. Suyun içərisində azca qalandan sonra üzərindəki torpaq, qum-çınqıl tamamilə təmizlənir. Ondan sonra onu qaynadıb, ya da qızardıb yemək çox faydalıdır. Təzyiq və şəkər xəstəliyin yoxdursa, quyruqla birlikdə qızardılan, közdə bişən göbələyin dadı damaqda qalır. Yaza qalan qovurma ilə bişirilən göbələyin dadına söz ola bilməz. Tovuz nənə bir məsləhət də verir:

– Mövsümündə bolluca bu bitkidən yemək insanın sağlamlığına yaxşı təsir edir. Şəkəri, təzyiqi normada saxlayır, bundan əlavə orqanizmi cavanlaşdırır, bədəni qüvvətləndirir. Şəkər xəstələri bunu çiy yesələr daha yaxşı təsir göstərir. Bu gün cavanları ən çox narahat edən çəki, kilodu. Bax onun da dərmanı bu göbələkdədir.

Nənənin şirin söhbətini dinlədikdən sonra şəhərə qayıdıb yolumuzu bazara salırıq. Tovuz nənənin dediklərini xatırlayıb göbələk satılan piştaxtaya yaxınlaşdım. Bazardakı yaz məhsullarını, bolluğu görərkən öz-özümə fikirləşdim: "Ana təbiət bu yurddan heç bir varını əsirgəməyib. Əslində, Uca Yaradan bu diyarın insanlarına ruzisini özündən əvvəl verib. Bu yurda elə səxavətlə min bir naz-nemət bəxş edib ki, bunların qədrini bilib, yığıb istifadə etməklə yanaşı, həm də artıb-çoxalması qayğısına qalsaq, sağlamlığımızın qeydinə qalıb süfrələrimizdən əskik etməsək bar-bərəkətimiz də tükənməz, xəstəliyin nə olduğunu da bilmərik.

✍ **Ramiyə ƏKBƏROVA**

## Naxçıvan Dövlət Universiteti
## *2024-2025-ci tədris ili üçün*
## *Hərbi tibb ixtisasına tələbə qəbulu elan edir*

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Hərbi tibb ixtisası üzrə tədris əyani formada Azərbaycan dilində aparılır. Təhsil müddəti 6 ildir.

Hərbi tibb ixtisasına cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, sentyabr ayının 15-dək 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşdan 23 yaşadək kişi cinsli hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilir.

Sənədlərin qəbulu:

Hərbi tibb ixtisasına qəbul olmaq istəyən namizədlər 1 aprel 2024-cü il tarixdən 30 aprel 2024-cü il tarixədək ərizə ilə Naxçıvan Dövlət Universitetində yaradılmış sənəd qəbulu komissiyasına müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- *abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;*
- *şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);*
- *tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);*
- *doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;*
- *nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);*
- *uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);*
- *oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;*
- *evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;*
- *rəngli fotoşəkil (baş geyimsiz, anfas) – 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;*
- *18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;*
- *elektrokardioqram;*
- *qanın ümumi analizi, qan qrupu və rezus-faktor;*
- *qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrin nəticələri;*
- *qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;*
- *sidiyin ümumi analizi;*
- *psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.*

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

**Qeyd:**

- *Namizədlər hər hansı səbəbdən Hərbi tibb ixtisasında təhsil almaqdan imtina etdikləri halda, Naxçıvan Dövlət Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.*
- *Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisasına keçirilən müsabiqədən sonra bu ixtisas üzrə boş yerlər qalarsa, bu yerlərin Azərbaycan Tibb Universitetinin müvafiq ixtisasına sənəd vermiş, həkim komissiyasından keçmiş və müsabiqə şərtlərini ödəmiş abituriyentlərin hesabına doldurulmasına etiraz etmirik.*

Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisasına qəbul aşağıdakı qaydada həyata keçirilir:

- *Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər.*
- *Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.*

Naxçıvan Dövlət Universitetinin Hərbi tibb ixtisası üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasında müayinədən müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması fakültə dekanlığının sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı IV ixtisas qrupunun fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər Hərbi tibb ixtisasına Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələri əsasında qəbul edilirlər.

Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursadək təhsil aldıqdan sonra hərbi andı qəbul edir və bütün növ təminatlarla (geyim, qida və sair) təmin edilirlər. Hərbi tibb ixtisasına qəbul olmuş şəxslər 4-cü kursadək Naxçıvan Dövlət Universitetində və kliniki bazalarda, son 2 ili isə birbaşa Hərbi hospitalda və hərbi şəraitdə təhsil alırlar. Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər təhsil müddətində müəyyən edilmiş məbləğdə müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Sənədlər Naxçıvan Dövlət Universitetində yaradılmış komissiya tərəfindən qəbul olunur (Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universiteti).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

Əlavə məlumat Naxçıvan Dövlət Universitetinin internet saytında *(www.ndu.edu.az)* yerləşdiriləcək.

***Əlaqə: Telefon: (+99436) 544-08-61 (2700), (+994)50 369-00-00, (+994)60 208-88-00***
***Faks: (+99436) 545-72-88***
***E-poçt: info@ndu.edu.az; admin@ndu.edu.az***

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
## *Naxçıvan Müəllimlər İnstitutu aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**I. Kafedra müdiri vəzifəsi:**

*– Humanitar və ictimai fənlər kafedrası*
*– Ali riyaziyyat və informatika kafedrası*

**II. Kafedralar üzrə digər vəzifələr:**

*Pedaqogika və psixologiya kafedrası üzrə:*
– Dosent –1 yer (0,5 ştat)

*Ali riyaziyyat və informatika kafedrası üzrə:*
– Baş müəllim –1 yer (1ştat)

*Azərbaycan dili və ədəbiyyat kafedrası üzrə:*
– Baş müəllim – 1 yer (1 ştat)

*Xarici dillər və tədrisi metodikası kafedrası üzrə:*
– Baş müəllim –1 yer (1ştat)

*Ümumi fənlər kafedrası üzrə:*
– Baş müəllim –1 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir.

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud təlimati tələblərə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, Naxçıvan Müəllimlər İnstitutu, Rektorluq***

## *İtmişdir*

Naxçıvan şəhəri, Tumbul kəndində yaşamış Quliyeva Pakizə İsfəndiyar qızının adına olan JN-005A nömrəli, 10307028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

85AE085 nömrə nişanlı avtomobilin qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Həsənov Hətəm Kazım oğlunun adına olan 063755 nömrəli Azərbaycan Vətən müharibəsi veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qarabağlar kəndində yaşamış Məmmədova Pakizə Bəbir qızının adına verilmiş JN-1228A nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qorçulu kənd sakini Əliyev Zəfər Fərman oğlunun adına olan JN-83 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonun Dəmirçi kəndində yaşamış Məmmədov Məmməd Əhməd oğlunun adına olan 118A və 118B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Qasımov İbrahim Əli oğlunun adına olan JN-1051 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarahəsənli kəndində yaşamış Məmmədova Gülüzar Qurban qızının adına olan JN-94A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kənd sakini Sabirov Ələsgər Əli oğlunun adına olan JN-411A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kənd sakini Ələkbərov Musa Yəhya oğlunun adına olan JN-777A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Üstüpü kəndində yaşamış Səfərova Zöhrə Ramazan qızının adına olan JN-46B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Rzaquliyev Məhəmməd Firudin oğlunun adına olan T-130 markalı buldozerin AZ-185-FX-099 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Hacıniyyət kənd sakini Babayev Fəxrəddin Məmməd oğlunun adına olan AA-000805 qeydiyyat nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Zeynalova Zərri Nəcəfqulu qızının adına olan JN-13A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

## Elan

"Naxçıvan Tikiş" Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 5 may 2024-cü il tarixdə səhmdarların növbəti yığıncağı keçiriləcəkdir. Yığıncaq Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi 1-də, saat $14^{00}$-da olacaqdır.

*1. Səhmdar Cəmiyyətin İdarə orqanlarının 2023-cü ilin Maliyyə təsərrüfat fəaliyyəti barədə hesabatın təqdim edilməsi.*

*2. Səhmdar Cəmiyyətin İdarə Heyətinin, Müşahidə Şurasının (direktorlar) və Maliyyə-təftiş komissiyasının üzvlərinin və sədrinin seçilməsi.*

*3. Nəzərdə tutulan digər məsələlər.*

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 21 fevral 2024-cü il tarixli 435-06/S saylı Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsi ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 4 mart 2024-cü il tarixli 447-06/S saylı Sərəncamına əsasən Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi ləğv edilmişdir.

ŞƏRQ qapısı

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Dizayner:* Tacirə Vəliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 99